www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet  30 sentyabr 2014-cü il  Çərşənbə axşamı  № 243 (5952)  Qiyməti  40 qəpik

**Xəbər**

## Göyçayda maşın karvanı qəzaya uğradı; 9 ölü

yazısı səh.15-də

**Gündəm**

### Xəzəryanı ölkələrin sammiti başladı




Azərbaycan prezidenti Həştərxanda Həsən Ruhani ilə bir araya gəldi; dənizin bölünməsi ilə bağlı əsas məsələlər razılaşdırıldı

yazısı səh.3-də

### Müsavatın qurultayı: ikinci gün - qalmaqalın səbəbi nə olub?

yazısı səh.6-da

### "Human Rights Watch"dan Azərbaycanla bağlı sərt hesabat

Əli Həsənov təşkilatın sənədinə sərt cavab verdi

yazısı səh.9-da

*İqbal Ağazadə:*

### "Müsavatda yeni bir dönəm başlayır"

yazısı səh.5-də

### Azərbaycanda "falçı və ekstrasens ovu" başlaya bilər

yazısı səh.15-də

### Vahid Ələkbərovla Araz Ağalarovun adı növbəti dəfə "Forbes"də

yazısı səh.2-də

### Şamaxılı general, bakılı "vor zakon"la əlbir olub, Krımı necə taladı..?

yazısı səh.10-da

### Jirinovskinin Azərbaycana gəlişi - müxalifətçilər tənqid, iqtidar təmsilçiləri isə təqdir edir

yazısı səh.13-də

### Misirdə Türkiyə seriallarının yayımı qadağan edildi

yazısı səh.10-da

### AŞ PA-nın payız sessiyası başladı

yazısı səh.2-də

### Bakı və Ankara üçün "X günü" tənliyi

yazısı səh.11-də

### Əlillər nazirlik qarşısında aksiya keçirdi

yazısı səh.12-də

## Qərb-Rusiya savaşında Azərbaycanın "üçüncü yolu"

# ÖLKƏMİZİN ADI OBAMANIN "QARA SİYAHISI"NA NİYƏ DÜŞDÜ?

ABŞ jurnalından rəsmi Bakının xarici siyasətinə dair ilginc iddia; **"Foreign Affairs"**: "Stavka onadır ki, seçim etmək məcburiyyəti qalmasın...", Amerika prezidentinin Azərbaycanın adını Rusiyadan savayı hansı ölkələrin yanında çəkdiyinə bir daha diqqət edək - Venesuela, Çin...



yazısı səh.8-də

## Məkkədən "Yeni Müsavat"a şikayət

Şeyxin adamları zəvvarları aldadıbmış; Azərbaycandan Həccə gedənlər QMİ məmurları tərəfindən ziyarət qaydalarının pozulmasından, yeməyin keyfiyyətindən narazılıq edirlər; VİP paketlərdə olan bəzi zəvvarlar isə xidmətlərin yüksək olduğunu deyir; amma adambaşına 3 min manatdan artıq pul ödəyənlər ciddi problemlə üz-üzə qalıb - təfsilat

yazısı səh.11-də



### Əli İnsanov həbsxanadan Arif Hacılıya təbrik göndərdi

yazısı səh.3-də



### Eks-spikerdən Müsavatın qurultayına "gurultulu" sözlər...

yazısı səh.3-də



### Anar Məmmədliyə Havel Mükafatı verildi

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014



## Yadigar Sadıqova ad günü təbriki

**Müsavat Partiyasının başqanı Arif Hacılı həbsdə olan vicdan məhbusu Yadigar Sadıqovu ad günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Yadigar bəy!**

**Siz 2004-2010-cu illər ərzində Müsavat Partiyasının Lənkəran şəhər təşkilatının sədri kimi partiyanın yerli strukturunun möhkəmlənməsi, inkişaf etdirilməsi, Müsavat ideyalarının yayılması işində mühüm fəaliyyət göstərmisiniz. Daha sonrakı illərdə Müsavat başqanının milli məsələlər üzrə müşaviri kimi partiyanın demokratik ənənələrinin, böyük öndər Məhəmməd Əmin Rəsulzadə ideyalarının ictimaiyyət arasında geniş təbliğatında, xalqlar arasında birlik və bərabərlik duyğularının möhkəmləndirilməsində, həmçinin Müsavat Partiyasının azərbaycançılıq siyasətinin izahatının və geniş təqdimatının aparılmasında əhəmiyyətli rol oynamış, bir ziyalı, ictimaiyyət arasında nüfuza sahib olan intellektual müsavatçı kimi ciddi siyasi məsələlərlə bağlı prinsipial mövqe nümayiş etdirmisiniz.**

**Bir ziyalı kimi Sizin həm ölkəmizin bütün sahələrində baş alıb gedən haqsızlıqlara və ədalətsizliyə, seçki saxtakarlıqlarına, həm də yaşadığınız regionun problemləri ilə bağlı açıq, haqlı və ardıcıl qaldırdığınız etirazınız, sistemli mübarizəniz artıq rejimin Sizə qarşı təzyiqlər dalğası başlatması ilə öncə 2006 və 2010-cu ildə dərs dediyiniz Lənkəran Dövlət Universitetindən qanunsuz olaraq uzaqlaşdırılmanıza, daha sonra isə 2013-cü il prezident seçkiləri öncəsi şərlənərək həbs edilmənizlə nəticələndi.**

**Həbsə olduğunuz müddətdə də Siz mübarizənizi, mətin müsavatçılığınızı ləyaqətlə davam etdirirsiniz. Sizin müsavatçı kimi prinsipial və dönməz mübarizəniz şərəfli Müsavat tarixinə bir töhfədir.**

**Hörmətli Yadigar bəy!**

**Sizi 46 yaşınızın tamam olması münasibətilə təbrik edirəm. Müsavat Partiyasının son qurultayında bütün Azərbaycana nümunə olan alternativ namizədlərin ciddi yarışı ilə keçən demokratik seçkilərdən bütün müsavatçılar kimi Sizin də qürur duyduğunuza əminliklə, məhz doğum günündə Müsavat Məclisi üzvlüyünə yüksək səslə seçilməyiniz canı ilə, qanı ilə müsavata bağlı olan Sizin kimi mücadilə dostumuza müsavatçıların böyük etimadının təzahürüdür.**

**Bir daha Sizi doğum gününüz münasibətilə təbrik edir, şəxsinizə tezliklə haqqınız olan azadlığa qovuşmanızı, ailə səadəti arzu edirəm.**

**Bu günə qədər olduğu kimi, bundan sonra da Müsavat Partiyasının işində fəal iştirak edəcəyinizə, Müsavat Partiyasının daha böyük uğurlara imza atmasında yaxından iştirak edəcəyinizə əminliyimi bildirir, siyasi fəaliyyətinizdə də Sizə uğurlar arzu edirəm".**

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Vahid Ələkbərovla Araz Ağalarovun adı növbəti dəfə "Forbes"də

**"Forbes" jurnalı Rusiyanın 2014-cü il üzrə ən iri 200 özəl şirkətinin adını açıqlayıb. "Qafqazinfo" xəbər verir ki, siyahıya liderlik azərbaycanlı iş adamı Vahid Ələkbərovun "Lukoyl" neft şirkətinə məxsusdur.**

Məlumatlarda qeyd olunur ki, ümumlikdə 109.600 əməkdaşı olan şirkətin ötən il üzrə gəliri 3799, 9 milyard dollardır.

200 şirkətin adının yer aldığı siyahıda digər azərbaycanlı iş adamı Araz Ağalarova məxsus "Krokus Siti"nin də adı var.

Belə ki, bu şirkət 6700 əməkdaşı və ötən il üzrə 26,6 milyardlıq gəliri ilə 187-ci yerdə yer alıb.



Vahid Ələkbərov



Araz Ağalarov



## AŞ PA-nın payız sessiyası başladı

**Strasburqda Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) payız sessiyası öz işinə başlayıb. APA-nın AŞ PA-nın rəsmi saytına istinadən yaydığı xəbərə görə, sessiya oktyabrın 3-dək davam edəcək.**

İlk iş günündə qurumun prezidenti bəyanatla çıxış edəcək, daha sonra bir sıra komitələrin tərkibinə dəyişikliklər edilməsi nəzərdə tutulub. Büro və Daimi Komitənin tərəqqi hesabatı, Türkiyədə keçirilmiş prezident seçkiləri ilə bağlı hesabat da təqdim olunacaq.

Sessiyanın ilk günündə Ukraynadakı böhran, İŞİD-in yaratdığı təhlükələr də müzakirə ediləcək.

Oktyabrın 2-də isə Azərbaycanın xarici işlər naziri, Avropa Şurası Nazirlər Komitəsinin sədri Elmar Məmmədyarov çıxış edəcək və iştirakçıların suallarını cavablandıracaq.

Payız sessiyasında həmçinin Avropa İnsan Haqları Məhkəməsinə hakimlərin seçkisi keçiriləcək, "Vatslav Havel" İnsan Hüquqları Mükafatı təqdim olunacaq, Gürcüstan və Albaniyaya dair monitorinqin nəticələri açıqlanacaq.

Qeyd edək ki, Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və bir qrup deputat AŞ PA-nın payız sessiyasında iştirak etmək üçün artıq Strasburqa yollanıblar. Nümayəndə heyətinə deputatlar Sevinc Fətəliyeva, Rövşən Rzayev, Rafael Hüseynov, Qənirə Paşayeva, Sahibə Qafarova, Fazil Mustafa və Sabir Hacıyev daxildir.

## Anar Məmmədliyə mükafat verildi



**Sentyabrın 29-da Vaslav Havel Sülh Mükafatının builki qalibi hazırda həbsdə olan azərbaycanlı hüquq müdafiəçisi Anar Məmmədli elan edilib. Qərar sentyabrın 29-da Strasburqda AŞ PA-nın payız sessiyasında elan olundu. Oktyabrın 1-də isə Praqada "İnsan Haqları 25 ildən sonra" adı altında beynəlxalq konfrans başlanır. Konfrans Havel mükafatının qalibinin şərəfinə keçiriləcək. 2014-cü il Havel Sülh Mükafatına 3 namizəd var idi - Azərbaycandan Seçki Monitorinqi Mərkəzinin rəhbəri, hazırda həbsdə olan Anar Məmmədli, İsraildən İnsan Haqları İnformasiya Mərkəzi və Maltadan Yezuit Qaçqın Xidməti.**

Builki mükafata namizədlərin ümumi sayı isə 56 idi. Sonradan siyahıda cəmi 3 namizəd saxlandı. Havel Sülh Mükafatı 60 min avrodur. Onu AŞ PA, Praqa Havel Kitabxanası və Charta 77 Fondu birlikdə təsis edib. Anar Məmmədli vəzifədən sui-istifadə və başqa ittihamlarla 2013-cü ilin dekabrında 5,5 il həbsə məhkum olunub.

❑ SEVİNC

## «Partiyalar haqqında» Qanun dəyişdiriləcək

**Bügün Milli Məclisin payız sessiyasının ilk plenar iclası öz işinə başlayacaq. Parlamentin mətbuat xidmətindən azvision.az-a daxil olan məlumatda bildirilir ki, iclasın gündəliyinə 37 məsələ daxil edilib.**

Bu məsələlər sırasında "Siyasi partiyalar haqqında" Qanunda dəyişikliklər edilməsi məsələsi də var. Qanuna nə kimi dəyişikliklərin ediləcəyi isə bilinmir. Amma hələ əvvəlcədən belə məlumatlar dolaşırdı ki, "Siyasi partiyalar haqqında" Qanun dəyişdiriləcək.

## "Şərq tərəfdaşlığı" ölkələrinin KİV azadlığı reytinqi açıqlandı

**Avropa İttifaqının Şərq tərəfdaşlığı ölkələrində KİV azadlığının monitorinqi layihəsi KİV azadlığı reytinqini açıqlayıb. "Turan" xəbər verir ki, hesabata əsasən, 2014-cü ilin ilk yarısının nəticələrinə görə, Gürcüstan birinci yeri tutur, ardınca Ukrayna, Ermənistan, Azərbaycan gəlir. Siyahını Belarus bağlayır.**

KİV azadlığı sahəsində vəziyyəti hər bir ölkədə öz sahəsində ən az beş il iş təcrübəsi olan yerli jurnalist, hüquq müdafiəçisi, hüquqşünas, sosioloq və ictimai xadimlərdən ibarət 10 ekspert dəyərləndirir.

İndeks "Siyasət", "Təcrübə", "Teleradioyayım", "İnternet və yeni media" kateqoriyaları üzrə balların toplanması ilə əldə olunur.

Qanunvericilik səviyyəsində hüquq və azadlıqların səviyyəsini müəyyən edən "Siyasət" kateqoriyasında Azərbaycan beşinci yeri tutub. Efir azadlığının səviyyəsini müəyyən edən "Teleradioyayım", internet azadlığı səviyyəsini müəyyən edən "İnternet və yeni media" kateqoriyalarında da Azərbaycan beşinci olub.

Dövlətin KİV-in hüquq və azadlıqlarının təmin edilməsində rolunu müəyyən edən "Təcrübə" kateqoriyasında Azərbaycan sonuncu yerdədir.



## Səid Nurinin sədrliyi ilə ADDIM yaradılıb

**ABŞ, Avropa və Azərbaycandan olan bir qrup hüquq müdafiəçisi yeni təşkilat yaradıb. Təşkilatın sədri ABŞ-da yaşayan azərbaycanlı gənc Səid Nuridir.**

Səid Nuri "Turan" agentliyinə deyib ki, təşkilatın adı ingilis dilində belədir: Azerbaijani Democratic Development, Information and Monitoring Center (Azərbaycan Demokratik İnkişaf, İnformasiya və Monitorinq Mərkəzi). Təşkilatın adının ingilis dilindəki abreviaturası ADDIM kimi müəyyənləşib ki, bu da Azərbaycan dilindəki "addım" sözünü xatırladır.

Səid Nuri bildirib ki, ADDIM-ın yaradılmasında məqsəd Azərbaycanda insan hüquqlarının müdafiəsi işinə dəstək verməkdir: "Azərbaycan hakimiyyəti rejimə loyallıq göstərməyən hər kəsi təcrid etmək, cəzalandırmaq və həbsə atmaq üçün əsassız həbslər sistemindən istifadə edir. Azərbaycanda insan hüquqlarının pozulması demokratik cəmiyyətin əsasları və demokratiyanın digər təməl prinsipləri üçün təhlükə təşkil edir".

**Səid Nurinin sözlərinə görə, ADDIM ona görə yaradılıb ki, indi qərarların qəbulu heç vaxt olmadığı qədər əhəmiyyətlidir:** "Yeni təşkilat Azərbaycanda insan hüquqları sahəsində bir sıra layihələr həyata keçirəcək, vəkillik metodlarından, o cümlədən hüquqi və siyasi təhlil, siyasi məhbuslara və onların ailələrinə hüquqi yardımdan istifadə edəcək".

Təşkilatın devizi belədir: "Korrupsiyalı keçmişdən demokratik gələcəyə doğru addımlayırıq!"

Səid Nuri 1981-ci ildə doğulub. Vaxtilə müxalif "Yeni Fikir" Gənclər Təşkilatı sədrinin müavini olub. 2005-ci ildə hakimiyyəti zorla ələ keçirmək ittihamı ilə 3 il şərti olaraq azadlıqdan məhrum edilib. 2006-cı ildə siyasi mühacir kimi Amerikaya gedib, sonra ABŞ vətəndaşlığı alıb.

2014-cü ilin yayında o, Azərbaycana gəlib. Sentyabrın 4-də onun Azərbaycandan çıxışına qadağa qoyulub. Baş Prokurorluq rəsmi açıqlama yayaraq bildirib ki, Səid Nurinin hərəkətinin müvəqqəti məhdudlaşdırılması Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində istintaq edilən cinayət işi ilə bağlıdır. Səid Nuri prokurorluqda dindirilib. Sentyabrın 11-i Səid Nuri Bakının hava limanına aparılaraq ölkədən yola salınıb.

Azərbaycanın bəzi hüquq müdafiə qurumları və vəkilləri hesab edir ki, ölkədə 98 nəfər siyasi məhbus var.

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Xəzəryanı ölkələrin sammiti keçirildi

## Azərbaycan prezidenti Həştərxanda Həsən Ruhani ilə bir araya gəldi




**Prezident İlham Əliyev Xəzəryanı ölkələrin dövlət başçılarının 4-cü Zirvə toplantısında iştirak etmək üçün Rusiyanın Həştərxan şəhərinə işgüzar səfər edib.**

**Sentyabrın 29-da Azərbaycan prezidentinin iranlı həmkarı Həsən Ruhaninin görüşü olub. "Trend"in məlumatına görə, görüşdə Azərbaycanla İran arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.**

Xəzəryanı ölkələrin dövlət başçılarının 4-cü Zirvə toplantısı çərçivəsində Azərbaycan, Türkmənistan və İran liderləri ilə ikitərəfli görüşlər keçirəcək. Bu barədə Rusiyanın dövlət başçısının köməkçisi Yuri Uşakov bildirib. Onun sözlərinə görə, Azərbaycan prezidenti İlham Əliyevlə də görüş nəzərdə tutulub.

**Prezident köməkçisi xatırladıb ki, RF və Azərbaycan liderləri bu yaxınlarda *(avqustda - red.)* Soçidə görüşüblər:** "Burada ikitərəfli və Ermənistan dövlət başçısının iştirakı ilə Dağlıq Qarabağ böhranının müzakirə olunduğu üçtərəfli görüşlər keçirilib". **Y.Uşakov qeyd edib ki, İlham Əliyevlə görüş vacibdir:** "Bizim əlaqələrimiz nəzərəçarpacaq dərəcədə fəallaşıb. Bu yaxınlarda, lap bugünlərdə Bakıda hökumətlərarası komissiyanın iclası keçirilib".

Dövlət başçısı Heydər Əliyev Fondunun təşəbbüsü ilə Rusiyanın Həştərxan şəhərində eks-prezidentin adını daşıyan 11 nömrəli orta məktəbin nəzdində inşa edilmiş "Dostluq" uşaq bağçasının açılış mərasiminə də qatılıb və çıxış edib. Bağçanın təməli 2013-cü ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə qoyulub. Prezidentə məlumat verilib ki, 140 yerlik bağçada həm Həştərxanda yaşayan azərbaycanlı, həm də yerli ailələrin uşaqları təlim-tərbiyə alacaqlar.




Bu arada Moskvada MDB üzvü olan dövlətlərin Təhlükəsizlik Şuraları katiblərinin ikinci görüşü keçirilib. APA-nın "AzərTAc"a istinadən xəbərinə görə, görüşdə Azərbaycan Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin başçılıq etdiyi nümayəndə heyəti iştirak edib. Görüş çərçivəsində Əfqanıstan amilinin MDB məkanında regional təhlükəsizliyin vəziyyətinə təsiri, İslamın radikallaşdırılması və onun MDB iştirakçısı olan dövlətlər üçün mümkün nəticələri, "əl-Qaidə"nin və özünü "İraq və Şam İslam Dövləti" adlandıran terrorçu qruplaşmanın pozucu fəaliyyəti məsələləri, habelə beynəlxalq informasiya təhlükəsizliyi sahəsində vəziyyət müzakirə edilib. Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev tədbirdə məruzə ilə çıxış edib. R.Mehdiyev səfər çərçivəsində Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə görüşüb. Görüşdə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Azərbaycan və Rusiya arasındakı təmasların perspektivi barədə müxtəlif təxminlər səslənir.

**Politoloq Vəfa Quluzadə isə deyib ki, bu görüşlər Azərbaycanın milli maraqlarına heç bir xələl gətirməyəcək:** "Ancaq Xəzər məsələsində mövqelər olduğu kimi qalacaq. Azərbaycan-Rusiya əlaqələrində əvvəl aqessivlik var idi. Jirinovskinin münasibəti buna sübutdur. Ancaq indi onlar valı dəyişdirib və Azərbaycan da fərqli mövqe nümayiş etdirir. Amma problemlər həll olunmamış qalacaq. Qarabağ məsələsində Rusiya heç bir güzəştə getməyəcək, Azərbaycan da Gömrük İttifaqına daxil olmayacaq".

**"Trend"in "Rossiya 24" telekanalına istinadən verdiyi məlumata görə, prezident İlham Əliyev sammit çərçivəsində leçirilən geniştərkibli görüşdə deyib ki, Azərbaycan Xəzərdəki qonşuları ilə hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verir. Dövlət başçısı qeyd edib:** "Xəzər dənizində tərəflərin silahlı qüvvələrinin mövcudluğu və hərbi fəaliyyət bütün Xəzəryanı ölkələr üçün bərabər təhlükəsizliyin təmin edilməsi prinsipi əsasında həyata keçirilməlidir. Bu, region dövlətləri arasında qarşılıqlı etimadı gücləndirməyə imkan verəcək". İlham Əliyev bildirib ki, Xəzər dənizi gələcəkdə də sülh, dostluq, əməkdaşlıq və mehriban qonşuluq zonası kimi qalmalıdır.

Regional təhlükəsizlikdən danışan İ.Əliyev qeyd edib ki, buna əsas təhdid Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasətidir.

**İ.Əliyev bildirib ki, Azərbaycanın tarixi torpaqları olan Dağlıq Qarabağ və ona bitişik yeddi rayon 20 ildən artıqdır işğal altındadır:** "Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq insan qaçqın və məcburi köçkünə çevrilib. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal etdikləri ərazilərdən dərhal və qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnamə qəbul edib. Təəssüf ki, Ermənistan onlara əməl etməməkdə davam edir və münaqişə həll edilməmiş qalır".

**Prezident qeyd edib ki, münaqişə beynəlxalq hüquq normaları və Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazi bütövlüyü əsasında həll edilməlidir:** "Təəssüf ki, Ermənistandakı mövcud diktatura rejimi müasir dünyanın reallıqlarını ayıq şəkildə qiymətləndirməyə və beynəlxalq hüquq normalarını adekvat qəbul etməyə qadir deyil".

Dövlət başçısı deyib ki, Ermənistan rejimi öz cəmiyyətində Azərbaycana nifrət hissi aşılayaraq Azərbaycanofobiyanı dövlət siyasəti səviyyəsinə qaldırıb, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini dinlərarası münaqişə kimi səciyyələndirərək münaqişənin uzanmasının mümkün nəticələrinə görə məsuliyyət daşıyır.

Həştərxanda sammit keçirən Xəzəryanı ölkələrin prezidentləri 19 bənddən ibarət birgə bəyanat qəbul ediblər.

"Media forum" saytı xəbər verir ki, 5 prezidentin imzaladığı sənəddə hər bir ölkənin Xəzərin ehtiyatlarından istifadə hüququnun detalları yer alıb. Sənədə görə, ölkələr 25 dəniz mili hüdudunda ehtiyatlardan istifadə hüququ alır. Bu hüduddan kənar su səthi ümumi istifadədir.

Bəyanatda həmçinin Xəzər dənizində kənar ölkələrin hərbi qüvvələrinin olmaması prinsipi yer alır. Birgə bəyanatda Xəzəryanı ölkələrin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət vurğulanır, güc tətbiqinin və güc tətbiqi ilə hədələmənin yolverilməzliyi qeyd olunur.

❑ **Cavìd TURAN**

# Əli İnsanov Arif Hacılıya təbrik göndərdi

**Həbsdə olan keçmiş səhiyyə naziri Əli İnsanov müxalif Müsavat Partiyasının yeni seçilmiş başqanı Arif Hacılını təbrik edib. Vəkil Toğrul Babayev İnsanovun təbrik məktubunu "Turan"a təqdim edib.**



Əli İnsanov

"Hörmətli Arif bəy, Sizi demoktratik yolla Müsavat Partiyasının başqanı seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə gələcək siyasi fəaliyyətinizdə uğurlar arzulayıram", - deyə təbrikdə qeyd edilir.

Xatırladaq ki, Əli İnsanov 2005-ci ilin oktyabrında parlament seçkiləri qabağı dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs edilib. Sonradan ittiham dəyişdirilərək iqtisadi cinayətlərlə əvəz olunub. O, 11 il müddətinə azadlıqdan məhrum edilib.

2013-cü il martın 14-də Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) Ə.İnsanovun İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsi (işgəncələrin qadağan edilməsi) və 6-cı maddəsi (ədalətli məhkəmə çəkişməsi hüququ) ilə zəmanət verilmiş hüquqlarının pozulmasını tanıyıb və ona 10 min avro həcmində kompensasiyanın verilməsi haqda qərar çıxarıb.

AİHM-in qərarının icrası ilə əlaqədar Azərbaycan Ali Məhkəməsinin Plenumu 2013-cü il noyabrın 15-də işi təkrar baxılmaq üçün Bakı Apelyasiya Məhkəməsinə göndərib. Bakı Apelyasiya Məhkəməsi isə İnsanovu həbsdə saxlayıb.

# Eks-spikerdən Müsavatın qurultayına "gurultulu" sözlər...

## Rəsul Quliyev yeni başqan seçimini hökumətin istəyi və parlamentə mandat hazırlığı hesab edir; **Mustafa Hacıbəyli:** "Biz onun tövbə edəcəyini düşünürdük..."



Rəsul Quliyev

**"Yeni başqan namizədliyi hökumət tərəfindən dəstəklənən insandır. Mən bu seçimdə hökumətin necə və hansı şəkildə rol oynadığını deyə bilmərəm, ancaq qurultayın üzvlərinin verdiyi səs hökumətin arzusu ilə üst-üstə düşüb".**

**Eks-spiker Rəsul Quliyev** Müsavat Partiyasının qurultayına və yeni başqanın Arif Hacılı seçilməsinə belə qiymət verib. Onun sözlərinə görə, "Müsavatın ambisiyası 2015-ci il parlament seçkilərində 2-3 mandat almaqdır və hökumətin belə bir iş görəcəyi realdır".

**R.Quliyevin fikrincə, Müsavat Partiyası bu qurultaydan sonra dağılacaq:** "Yeni başqan ətrafdakıların hamısına səni deputat edəcəyəm sözünü verməklə bu prosesin qarşısını almağa çalışacaq. Ancaq bu mümkün deyil".

**O, partiyanı pulsuzluqda da qınayıb:** "Müsavatın pulu olmadığından, ancaq 12 saatlıq qurultay keçirə bilər. Bu 12 saatın 2 saatı qeydiyyata alınmağa, 4 saatı səsvermə və sayma prosesinə ayrılırsa, hansı ana müxalifətçilikdən və hakim partiya olmaqdan söhbət gedə bilər? Əlavə bir gün qurultaylarını uzatmaq üçün 2640 manat tapa bilməyən partiya hansı prezident seçkisində iştirak edəcəyindən dəm vurur? İldə 2 milyard manatdan çox əmək haqqı alan 5 milyon azərbaycanlıdan 2640 manat ianə verməyə, bir 50 nəfəri tapa bilməyən partiyanın özünü ana və ya bala müxalifət adlandırmağa haqqı varmı?"

**Müsavatın sabiq başqan müşaviri *(qurultaydan sonra yeni başqan müşavirlər seçməyib - E.S.)* Mustafa Hacıbəyli** Rəsul Quliyevin dediklərini qərəzdən irəli gələn böhtan hesab edir. Onun sözlərinə görə, eks-spikerin Müsavata qarşı düşmənçiliyi 1992-ci ildən başlayıb və vəzifədə olduğu dövrdən partiyaya yönəlik kampaniya aparıb.

"Biz onu müəyyən dövrdə müxalifətdə görmüşük və tövbə edəcəyini düşünürdük. Amma tövbə etmədi və yenidən mövqeyini dəyişdi. Artıq mətbuatda dərc olunub və bizim də xəbərimiz var ki, Rəsul Quliyev parlamentin üzvü əmlakını ona verib. İndi kimin iqtidara yaxın adam olduğunu daha yaxşı görmək olar. Rəsul Quliyev Milli Şura fəaliyyətə başlayanda da qərəzli çıxışlar edirdi, indi də Müsavatın qurultayına qulp qoymağa çalışır, qərəzdən başqa heç nə yoxdur".

**M.Hacıbəyli mandat ambisiyası ilə bağlı ittihamlara belə şərh verdi:** "Müsavat parlament seçkilərində iştirak etmək və qələbə qazanmaq əzmindədir. Arif Hacılı seçki platformasını açıqlayıb. Müsavatın mövqeyi gizli saxlanmayıb, hamıya bəyan olunub. Kənddə əmlak almaq üçün mövqeyini dəyişənlər isə prinsip, mövqe, demokratlıqdan danışırlar. Rəsul Quliyevin mafioz imici var. Müsavat isə Azərbaycanın demokratikləşməsi, insan haqlarının qorunması uğrunda ardıcıl mübarizədədir".

**Müsavat funksioneri qurultayın bir gündə yekunlaşması və pulsuzluq qınağına isə belə münasibət açıqladı:** "Rəsul Quliyev özünü inkar edir. Onun ilk çıxışı ilə son sözləri daban-dabana ziddir. Əgər Müsavat hökumətin diktəsi ilə qurultay keçirmiş olsaydı, o zaman maliyyə problemi olmazdı. İkincisi, qurultayın bir günə yekunlaşdırılması planda var idi. AKP-nin minlərlə insanın iştirak etdiyi qurultayı bir günə başa çatdı. Rəsul Quliyev harada görüb ki, qurultay bir neçə gün davam etsin? Heç özü neçə günlük qurultay edib? İndi belə görünür ki, Rəsul müəllim qocalıb".

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014

# Müsavatda seçkinin nəticələrinə şübhə edənlər tapıldı

## Arif Hacılı etiraz bəyanatlarına münasibət bildirdi

**Müsavatın qurultayı yekunlaşsa da, etirazlar səngiməyib. Başqanlığa namizəd Qubad İbadoğlu, xüsusilə də onu dəstəkləyən bir neçə tanınmış müsavatçı etirazlarını bildirməkdədirlər. Müsavat Divanının sabiq üzvü Vurğun Əyyub “Qafqazinfo”ya açıqlamasında bildirib ki, seçki zamanı ədalətsizliyə yol verilib: “Hesab edirəm ki, seçkilərin keçirilməsində bəzi qüsurlara və ədalətsizliyə yol verildi. Bu da keçirilən seçkilərin nəticələrinin legitimliyini şübhə altına alır”.**


Arif Hacılı


Qubad İbadoğlu


Tural Abbaslı


Səxavət Əlisoy

**V.Əyyub** yeni başqan Arif Hacılını təbrik etməyəcəyini deyib: “Legitimliyi şübhə altında olan başqanı mən heç vaxt təbrik etməyəcəyəm”.

**V.Əyyub Məclis üzvlüyündəki fəaliyyətini davam etdirib-etdirməyəcəyi haqda qərar vermədiyini bildirib:** “Məndə olan faktlara görə, seçkilərin nəticələrinin legitimliyi şübhə altındadır. Nəticələrin ləğv edilməsi və təkrar seçki keçirilməsi barədə hələ ki düşünməmişəm. Amma bu istiqamətdə faktlar getdikcə toplanır”.

**Qurultayda namizədliyini Q.İbadoğlunun xeyirinə geri götürən Səxavət Əlisoy isə partiyadan istefa verə biləcəyini açıqlayıb. S.Əlisoy bildirib ki, Müsavat Partiyasının dəyişməsinə 4 səs imkan vermədi:** “Partiya ötən əsrin 70-ci illərindəki durğunluq dövrünə oxşar bir mərhələyə qədəm qoydu. Dəyişiklik tərəfdarı olanlar indi necə hərəkət etməlidir? İslahat tərəfdarlarının şüarçılar, populistlər, hay-küyçülərlə birgə fəaliyyəti mümkündürmü? İndi çoxları bu məsələ barədə fikirləşir. Yaxın günlərdə mən də öz qərarımı açıqlayacam. Mən və mənim dostlarım Müsavat Partiyasında fəaliyyət göstərib-göstərməməyimiz barədə düşünürük. Bu barədə müzakirələr aparılır. Biz hazırda düşünürük. Yaxın günlərdə necə bir addım atacağımızla bağlı bir qərar verəcəyik. Ümumiyyətlə, əgər partiyada fəaliyyət göstərəcəyiksə, necə edəcəyik? Bu sualların cavabı mətbuata geniş şəkildə veriləcək”.

**Müsavat Məclisinin üzvü Hikmət Hacızadə isə keçirilən seçkiləri müsbət qiymətləndirib və bununla qürur duyur:** “Bu, Azərbaycanın ictimai həyatı üçün böyük hadisədir. Seçki şəffaf, düzgün, alternativli, plüralistik və rəqabətli keçdi. Buna görə də fəxr eləyirəm. Mən Məclisə seçilmişəm, amma Divan üzvü olmaq niyyətim yoxdur. Seçki qurtarıb, hamı bir olub partiyanın işində iştirak etməlidir. Etirazlara gəlincə, bəlkə pozuntular olub, onları araşdırmaq lazımdır. Pozuntuları seçki komissiyası, Mərkəzi Nəzarət Təftiş Komissiyası araşdırmalıdır. Əgər pozuntular obyektiv araşdırılmasa, onda böyük etirazlar olacaq”.

**Sabiq namizəd Qubad İbadoğlu isə bildirdi ki, baş verən proseslərin təhlili göstərir ki, seçkidən əvvəl və seçkidə xoşagəlməz hallar olub. Bu isə seçkinin ədalətliliyinə təsir göstərir:** “Əgər seçkinin nəticələrində böyük fərq görsənsəydi, biz bu barədə heç danışmazdıq. Partiyanın yeni seçilən sədri seçilmək üçün yetərsaydan cəmi üç səs çox toplayıb və bütövlükdə də onunla mənim səslərimin arasında 28 səs fərq var. Baş verənlər isə bu fərqə təsir gücünə malik olan hallardır. Təbliğat-təşviqat dövründə davranış qaydalarının 5-ci maddəsi seçki günü siyahılardan istifadə olunmasını, 9-cu maddə isə İsa Qəmbərin adından sui-istifadə olunmasını qadağan edirdi. Seçkilərdə bu qaydalara əməl olunmayıb. Biz seçki kampaniyası dövründə də Təşkilat Komitəsində bu məsələni qaldırmışdıq. Təəssüf ki, nail ola bilməmişdik. Arif Hacılı formal olaraq İcra Aparatının rəhbərliyindən istefa versə də təbliğat dövründə İcra Aparatı bütövlükdə onun təbliğat kampaniyasına cəlb olunub. Seçki günü rayonlardan gələn qurultay nümayəndələrinə İsa Qəmbərin adından istifadə edərək Arif bəyin daha məqbul olduğunu bildiriblər. Bu isə nümayəndələrin mövqeyinə təsir göstərirdi. Mən qeyd etdiyim bu halları ədalətsizlik hesab edirəm. Amma indi bunu hərə bir cür ifadə edir. Məsələn, mən bütövlükdə seçkinin nəticələrinin legitimliyini şübhə altına almaqla bağlı Vurğun Əyyubun mövqeyinə də hörmətlə yanaşıram. Yaxud da Səxavət Əlisoyun istefa verməklə etiraz edə biləcəyi barədə fikrinə də hörmətlə yanaşıram. Amma öz fikrimi də saxlayıram ki, biz Müsavat Partiyasına mənafe mübarizəsinə görə gəlməmişik. Biz müsavatçılıq ideologiyasının daşıyıcıları olaraq bir məfkurə mübarizəsinə qoşulmuşuq. Mənim fikrim ondan ibarətdir ki, seçki şəffaf keçib, səslərin sayılması prosesində media iştirak edib. Yanaşmam odur ki, partiyada fəaliyyətimizi davam etdirək. Amma hansı formatda, seçkili orqanlarda təmsilçilikləmi. Bu məsələlərlə bağlı məsləhətləşmələr gedir. Müxtəlif təkliflər, mövqelər var. Bu mövqelərin biri maksimum vəziyyəti xarakterizə edir. Biri minimum vəziyyəti xarakterizə edir, biri orta mövqedə dayanır. Çalışacağıq ki, ümumi mövqeyə gətirək, qərarımızı verək. Müsavat Partiyasından getmək niyyətimiz yoxdur. Biz Müsavatın güclənməsi, yeniləşməsi üçün bu prosesə qoşulmuşuq. Sadəcə olaraq, ilkin rəyimiz ondan ibarətdir ki, yeni seçilmiş komandaya imkan verək öz platformasını reallaşdırsın. Əslində bizim böyük gözləntimiz yoxdur, çünki platforma əvvəlki kursun üzərində qurulub. Biz istəyirik ki, partiyada nizamnamə tələblərinə əməl edilməsinə nail olaq. Məsləhətləşmələrimiz gedir, ilkin qərarlarımızı bu həftə ərzində də ictimailəşdirəcəyik”.

**Q.İbadoğlu onu da bildirdi ki, ona Müsavat Məclisinin sədri postu təklif olunub:** “Mənə Məclisin sədri olmaq təklif edilib, lakin mən imtina etmişəm. Mən Məclis üzvü də deyiləm. Məclisin sədrini də Məclisin üzvləri seçməlidir. Mən bu məsələni ümumiyyətlə hansısa bir sövdələşmə məsələsi kimi qiymətləndirmirəm. Bizim mübarizəmiz Müsavatın güclənməsi üçündür”.

**Başqanlığa sabiq namizəd Tural Abbaslı isə ortaya qoyduğu mövqe ilə Müsavatın maraqlarını, bütövlüyünü, güclənməsini hər şeydən üstün tutduğunu sübuta yetirmiş oldu. T.Abbaslı “Yeni Müsavat”a açıqlamasında dedi ki, Müsavat Partiyasına xidmət etmək istədiyini, partiyanı inkişaf edən partiya görmək istədiyini bəyan edən şəxs səmimidirsə, başqan postunda əyləşmədən də Müsavata xidmət edə bilər. Əgər söylənmiş fikirlərdə səmimiyyət olmayıbsa, təbii ki, həmin şəxs yaxasını müxtəlif bəhanələr gətirərək kənara çəkəcək:** “Partiyaya başqan olmadan da böyük xidmətlər göstərmək mümkündür, təki bunu istəyəsən. Seçkidən əvvəl mənə jurnalistlər sual vermişdilər ki, seçilsəniz komandanızda kimlər təmsil olunacaq. Mən demişdim ki, ilk olaraq Arif Hacılı ilə Qubad İbadoğluna müraciət edəcəyəm ki, gəlin komandada təmsil olunub birgə işləyək, Müsavatın komandasında təmsil olunaq. İsa bəydən xahiş edəcəkdim ki, təcrübəsi ilə yanımızda olsun. Bu gün hesab edirəm ki, Qubad bəyin partiyanın rəhbərliyində təmsil olunması partiyamıza xeyir verə bilər. Mən namizəd olanda da qeyd eləmişdim ki, mənim üçün başqanın kimliyi önəmli deyil. Mənim üçün Müsavat qurultayının iradəsi önəmlidir, o iradə necə təcəlli edəcəksə bizim başımızın üstündə yeri olacaq”.

**T.Abbaslı bəyan etdi ki, müsavatçıların iradəsi ilə hesablaşmaq lazımdır:** “Seçki komissiyasının üzvlərindən ikisi mənim nümayəndələrim idi, müşahidəçilərim prosesi izləyirdilər. Seçki komissiyası namizədlərin nümayəndələrindən ibarət olmaqla paritet əsasda təşkil olunurdu ki, heç kim seçkilərin nəticələrini şübhə altına almasın. Seçki komissiyasının bütün üzvləri seçkinin demokratik keçirildiyini əsas göstərərək nəticələri rəsmən təsdiqləyiblər. Seçki komissiyasındakı nümayəndələrim, müşahidəçilərim mənə seçki saxtakarlığı faktının olduğu haqda heç bir məlumat verməyiblər, seçki pozuntusunun olmadığını, seçkinin düzgün keçdiyini bildiriblər. Belə olduğu halda mən hansı əsasla seçkilərin nəticələrini tanımamamlıyam, şübhə altına almalıyam? Əsas olmadan seçkinin nəticələrini şübhə altına almaq düzgün deyil. Baxmayaraq ki, şəxsən mən və yaxın tərəfdarlarım Məclis üzvlüyünə seçilməmişik, bu bizim nəticələri şübhə altına almağımız üçün əsas ola bilməz. Nəticələr qurultay nümayəndələrinin istəyidir. Əgər bizi istəməyiblərsə, bu da bizə qəbuldur. Biz Müsavata vəzifələrə görə gəlməmişik. Bu gün qurultay nümayəndələri bizi sıravi üzv kimi görmək istəyirsə, deməli, biz Müsavatın sıravi əsgəri kimi də əlimizdən gələni edəcəyik. Vurğun Əyyub, Qubad İbadoğlu, Səxavət Əlisoy uzun illərin siyasətçiləridir. Onlar yəqin ki, nə dediklərini, niyə dediklərini başa düşürlər, eyni zamanda açıqlamalarının doğuracağı məsuliyyəti, yaradacağı situasiyanı da başa düşürlər. Seçkidə pozuntu olsaydı, buna qarşı ən kəskin şəkildə çıxan, bunu bəyan edən şəxs mən olacaqdım. Seçkidə uduzmuşamsa, əsas olmadan "hər şey pisdir, düzgün seçki olmayıb" deyə bilmərəm. Müsavatımız üçün xeyirli-uğurlu olsun, Müsavatımız bizi harada görsə, biz oradayıq. Biz hamımız bir yerdə çalışmalıyıq ki, müsavatçılıq ideologiyası ölkədə hakim ideologiyaya çevrilsin".

**Seçkilərin legitimliyinin şübhə altına alınması, ədalətlilik prinsiplərinin pozulması barədə yuxarıdakı iddialara Müsavat Partiyasının başqanı Arif Hacılının mövqeyini öyrəndik. A.Hacılı bildirdi ki, Müsavat Partiyasında keçirilən seçkilər Azərbaycan cəmiyyətində keçirilən seçkilər sırasında ən nümunəvi seçkilər oldu. Seçkilər azad və ədalətli, şəffaf keçirildi:** “Seçki komissiyasında hər namizədin iki nümayəndəsi var idi. Seçki komissiyasının bütün üzvləri seçkilərin azad və ədalətli, demokratik olmasını təsdiq ediblər, seçki protokoluna imza atıblar. Seçkilər zamanı hər hansı pozuntulara yol verilməyib. Başqan seçkiləri ilə bağlı hətta hər hansı qüsurlardan belə, söhbət getmir. Sadəcə, Məclis üzvlüyünə seçkilər zamanı bəzi seçicilər seçki məntəqəsindən kənarda səs veriblər. 80 Məclis üzvü yerinə 150-dək namizəd irəli sürülmüşdü. 15 namizəd arasından 80 nəfərin seçilməsi müəyyən vaxt aparır, müəyyən texniki çətinliklər yaradır. Ona görə də bəzi qurultay nümayəndələri səs verərkən bu işi seçki məntəqəsindən kənarda həyata keçiriblər. Ancaq Məclis üzvlüyünə seçkilərdə də seçki komissiyasının üzvləri seçkinin nəticələrini şübhə altına alacaq faktın olmadığını əsas gətirərək yekun protokolu imzalayıblar. Bu baxımdan seçkilərin nəticələrini şübhə altına almağa heç bir əsas yoxdur. Seçkilər tam bərabərhüquqlu təbliğat imkanları şəraitində, tamamilə azad və ədalətli şəkildə keçirilib. Məclis üzvlüyünə seçkilərdə hər hansı xırda texniki qüsurlar olubsa da bu qüsurlar qurultay nümayəndələrinin öz iradəsini azad surətdə ifadə etməsinə maneçilik törədə bilməzdi”.

**“Keçmiş rəqiblərinizi müavin və ya partiyada digər postlara təyin edə bilərsinizmi” sualına A.Hacılı belə cavab verdi:** “Seçki kampaniyası zamanı da, qurultayda çıxışımda da bəyan etmişəm ki, seçki mübarizəsi dövründə mənə opponentlik etmiş namizədlər, o namizədlərin tərəfdarları ilə bizim oponentliyimiz sentyabrın 27-də seçkilər keçirildikdən sonra başa çatıb. Artıq bizim hər birimiz eyni ideoloji xəttə əsaslanaraq fəaliyyət göstərən partiyanın üzvləri kimi fəaliyyət göstəririk. Mən seçki kampaniyası dövründə hansı mövqe tutmasından asılı olmayaraq, bütün partiya üzvləri ilə birlikdə fəaliyyət göstərməyə hazıram. Müsavat Partiyası vahid bir komandadır və hər bir partiya üzvü partiyanın inkişafı naminə çalışmaq istəyirsə, mən Müsavat başqanı olaraq bunun üçün hər kəsə şərait yaradacağam”.

## Rüstəm İbrahimbəyov yeni başqanı təbrik etdi

**Seçkinin nəticələri ilə bağlı müzakirələr getdiyi bir vaxtda A. Hacılıya başqan seçilməsi münasibətilə təbriklər gəlməkdədir.**

**Milli Şuranın fəxri sədri, kinorejissor Rüstəm İbrahimbəyov modern.az bildirib ki, Müsavatdakı başqanlıq seçkiləri təqdirəlayiqdir:** “Mən Arif Hacılını Müsavata sədr seçilməsi münasibətilə ürəkdən təbrik edirəm, uğurlar arzulayıram”.

**ADP sədri Sərdar Cəlaloğlu isə hafta.az-a açıqlamasında deyib ki, indiki şəraitdə təşkilati baxımından Müsavat Partiyası ən doğru seçimi etdi:** “Çünki uzun illərdir Müsavat Partiyasının təşkilati işlərinə Arif Hacılı rəhbərlik edir. Başqanlığa haqqı olan şəxslər sırasında onun adı birincidir. Arif Hacılıdan az faiz səslə geridə qalan Qubad İbadoğlu da çox dəyərli şəxsdir. Eyni zamanda onda olan bəzi keyfiyyətlər də Arif Hacılıda yoxdur. Bu iki şəxs birləşib fəaliyyət göstərə bilsələr, uğurlar əldə edə biləcəklər. Əgər belə olmasa, İsa Qəmbərin gedişi ilə Müsavat Partiyası çox böyük itki verəcək”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014

# "Rusiyanın Azərbaycana verə biləcəyi heç bir şey yoxdur"

## İqbal Ağazadə: "Düşünmürəm ki, Qərb Azərbaycanla münasibətdə Azərbaycanı Avropa, demokratiya siyasi coğrafiyasından uzaqlaşdıra biləcək sərt addımlar atacaq"

**Sentyabrın 30-da Milli Məclisin payız sessiyası öz işinə başlayır. Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə ilə Azərbaycan-Qərb, Azərbaycan-Rusiya münasibətləri, Müsavatın qurultayı və digər mövzularda etdiyimiz söhbət zamanı öncə parlamentin bu sessiyasının ilk plenar iclasının gündəliyi barədə danışdıq. Bildirdi ki, gündəlikdəki "Siyasi partiyalar haqqında" qanuna dəyişiklik təklifi daha çox diqqətini çəkib:**

- Çox qəribədir, siyasi partiyalar maliyyə hesabatlarını bundan sonra MSK-ya verəcəklər. Belə bir təklif verilib. Bu isə qanunvericiliyin fəlsəfəsinə ziddir. MSK heç vaxt maliyyə hesabatı qəbul edə bilməz. Çünki büdcədən ayrılan vəsaitin xərclənməsinə büdcə üzərində nəzarəti həyata keçirən orqanlar nəzarət etməlidir. Bunun arxasında nə dayandığını hələlik təxmin etmək mümkündür ki, MSK sabah siyasi partiyaların fəaliyyətinə bu və ya digər şəkildə seçkiyə buraxılmamaq və sair kimi problemlər yarada bilər. Ona görə güman edirəm ki, MSK-nın müraciəti əsasında siyasi partiyalar maliyyə hesabatları təqdim edirlər kimi dəyişiklik qanunçuluğun fəlsəfəsinə zidd bir şeydir. Ona görə də bu, ciddi bir məsələdir. Bundan sonra bir nəfərin bir və ya bir neçə partiyaya il ərzində verdiyi ianənin yuxarı həddi 10 min manatdan artıq ola bilməz kimi dəyişiklik təklif olunur. Onsuz da siyasi partiyalara 10 mindən artıq kimsə ianə vermir.

***- Bu sessiyada yas və toy məclisləri ilə bağlı qanunvericiliyə dəyişiklik gözlənilləndirmi?***

- Yox, hələlik belə bir qanun layihəsi parlamentə daxil olmayıb. Mən hesab etmirəm ki, kimsə xeyir-şər haqqında qanun qəbul etməlidir. Belə bir qanun ola bilməz. Hər kəs ölüsünü necə dəfn etməyi özü bilir. Dövlət buna qadağa qoya bilməz. Bu, şəriət dövləti deyil ki, şəriət qaydalarına mütləq əməl edəsən. Burda tövsiyə, maarifləndirmə ola, müzakirələr açıla, cəmiyyətin ağıllı, tanınmış adamları maarifləndirmə yolu ilə insanlar arasında təbliğat apara bilər. Amma bunu qanunla tənzimləmək absurd bir şeydir. Yaxud mən əhd eləmişəm ki, oğlumun toyunu belə edəcəyəm. Sən insanın ömründə bir dəfə etdiyi toyuna qanunmu qoyacaqsan ki, restoranda bu yeməyi vermə. Bunlar absurd məsələlərdir. Belə şeyləri, ümumiyyətlə, müzakirəyə çıxartmaq doğru deyil. Əgər israfçılıq varsa... "İsrafçılıq" deyib bağıranların məclislərinə baxın, ən çox israfçılıq ordadır. Hər kəs çalışır ki, qanunu başqası üçün yazsın, özü üçün yox. Əgər sən düzgün hesab etmirsənsə, etmə də bunu.

**""İsrafçılıq" deyib bağıranların məclislərinə baxın, ən çox israfçılıq ordadır"**

***- İqbal bəy, son vaxtlar belə rəy formalaşmaqdadır ki, rəsmi Bakı Qərbdən üz döndərib. Xüsusilə də Rusiya ilə təmasların intensivləşdiyi bir məqamda Avropa və Amerikadan gələn təpkilərə Bakıdan adekvat reaksiya verilməsi belə qənaət formalaşdırır. Siz bu durumu necə şərh edərdiniz?***

- Qərbin təzyiqləri keçən illər ərzində artan və azalan xətt üzrə həmişə davam edib. Qərb çalışır ki, Azərbaycan demokratik siyasi coğrafiyadan çıxmasın. Bütün vasitələrlə Azərbaycan bu coğrafiyada qalsın ki, onunla təmaslar, ünsiyyət, münasibətlər daha da genişlənsin və tədrici demokratiyaya keçid formalaşsın. Ola bilər ki, burda yanlışlıqlar olub. Bəzən Qərbin gözləntiləri özünü doğrultmayıb, hakimiyyətin atdığı addımlar sərt olub, ümidləri puça çıxarıb. Amma düşünürəm ki, Qərb Azərbaycanla münasibətdə Azərbaycanı Avropa, demokratiya siyasi coğrafiyasından uzaqlaşdıra biləcək sərt addımlar atacaq.

Məsələnin ikinci tərəfi odur ki, Azərbaycan iqtidarı çox aydın şəkildə dərk edir ki, Rusiyanın Azərbaycana verə biləcək heç bir şeyi yoxdur. Rusiyanın Azərbaycana verə biləcəyi ancaq müstəqilliyin itirilməsi ola bilər. Yaxud Azərbaycana etnik konfliktləri gətirə bilər, Azərbaycanda çox ciddi kataklizmlər yaşana bilər. Hakimiyyət bunu dəqiq bilir və bildiyinə görə də manevrlərinə baxmayaraq, Rusiya siyasi coğrafiyasında yer almayacaq. Mən bunu hər zaman demişəm. Azərbaycan iqtisadiyyatını, Azərbaycanın iqtisadi durumunu təhlil edərkən bütün bunlara bir daha əmin oluram. Bu gün Azərbaycanın ixrac potensialının az qala 95 faizi Qərblə bağlıdır. Təkcə İtaliya ilə ixracatın miqdarı 42-45 faiz arasındadır. Azərbaycan hara, niyə üzünü çevirir, nədən ötrü çevirməlidir, bu, ona nə vəd edir? Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmayacağı və ya Rusiyanın Azərbaycana yenidən güzəştə getməyəcəyi Azərbaycan iqtidarına bəllidir. İkinci də ağıllı adamların hamısı hesab edir ki, dünən səndən alıb bu gün sənə qaytara biləcək bir adam o biri gün yenə onu geri alacaq. Elə isə həmin prosesə yenidən getməyin nə mənası var?

***- Rusiyanın Qarabağı Azərbaycana qaytarması real görünürmü?***

- Mən inanmıram. Yaxın 5 ildə Qarabağın statusunda hər hansı dəyişiklik olacağını gözləmirəm. Çünki Rusiyanın yaxın 5 ildə düşüncə və idarəetməsində dəyişiklik ola biləcəyini güman etmirəm.

***- ABŞ prezidentinin BMT Baş Assambleyasındakı çıxışında insan haqlarının pozulduğu ölkələr sırasında Azərbaycanın adını çəkməsi gözlənilən olmadı...***

- Ola bilər ki, Obamanın ad çəkməsi gözlənilən olmadı. Amma ad çəkmək hələ dəyişmək demək deyil. Obama ad çəkəndən dərhal sonra Amerika-Azərbaycan strateji müttəfiqdir və bu istiqamətdə əlaqələrimiz davam edəcək, kimi bəyanatlar da kifayət qədər səslənib. Obama BMT-də bir çıxış edib, mesaj verib. Corc Buş 2008-ci ildə Gürcüstanda səfərdə olanda demokratiyanın sərhədləri nə qədər mümkündür, o qədər genişlənəcək kimi bəyanat verdi. Onda da Azərbaycanda ekspertlər, siyasi müxalifətin böyük bir qismi bunu fərqli şəkildə izah etməyə çalışdı. Real maraqlar başqa şeydir. Siyasət real maraqların üzərində qurulur. O real siyasətdə hələlik Amerika-Azərbaycan münasibətlərinin gərginləşdirilməsi və Azərbaycanı Avropa siyasi coğrafiyasından uzaqlaşdıra biləcək sərt addımların atılmasını gözləmirəm.

***- Ötən həftə Moskva merinin Bakı səfərində yeni iqtisadi-ticari razılaşmalar əldə olundu. Bakı ilə Moskva arasındakı iqtisadi bağlılıqlar sonda siyasi bağlılığa apara bilərmi?***



**"Müsavatda yeni bir dönəm, yeni bir başqanlıq dönəmi başlayır"**

- Hesab etmirəm ki, Azərbaycan əlverişli embarqo imkanlarından istifadə edib bu müqavilələri bağlayır. Bu müqavilələr yerinə yetiriləcəkmi, hələ bunlar düşündürücüdür. Azərbaycanın meyvə-tərəvəz ehtiyatları o qədərdirmi ki, daxili bazarı təmin edib, indi də Moskvaya göndərilir? Azərbaycanın daxili bazarında meyvə-tərəvəz, bostan məhsullarının çəkisi o qədər də çox deyil. Azərbaycanın daxili tələbatını ödəmir. Ayrı-ayrı adamların hansısa mal aparması və s. də siyasəti dəyişmək üçün ciddi faktorlar deyil. Azərbaycanda dövlət sifarişi deyilən anlayış yoxdur ki, Azərbaycan hökuməti ilə Moskva arasında bununla bağlı razılaşma əldə oluna. Sərhəddə yumşaqlıq yaradıla bilər... Amma burada əlavə dəyər vergisinin qaytarılması prosesi yoxdur, dövlət üzərinə bir məsuliyyət götürmür. Mənim məhsulum yoxdursa, dövlət hardan alıb verəcək? Digər tərəfdən, Azərbaycanın ən zəruri kənd təsərrüfatı məhsullarına baxsanız - kartof, soğan, taxıl, meyvə, alma apelsin belə mövsüm bitdikdən sonra İran, Türkiyə, hətta uzaq İspaniyadan gətirilir. Azərbaycan bu məhsulları hardan alıb verəcək? Yəni bunlar, sadəcə olaraq, Rusiya və Azərbaycan üçün siyasi manevrlərə hesablanmış müqavilələrdir. Azərbaycan sovet hökumətinin dönəmində deyil ki, məsələn, Moskvaya kələm, ya pomidor istehsal edib göndərsin.

***- Azərbaycanı daim təhqir edən Jirinovskinin Bakıya səfəri, burda təmtəraqla qarşılanıb yola salınması nəyə hesablanmışdı?***

- Siyasətdə daimi dostlar, daimi düşmənlər anlayışı yoxdur. Əgər Jirinovskinin mövqeyi dəyişirsə, "mən Azərbaycanı belə tanımırdım", yaxud "Azərbaycan bizim dostumuzdur" kimi bəyanatlar səsləndirilə bilirsə, bu proses davam etdirilməlidir. Ancaq "o, mənim haqqımda bunu deyib deyə, onunla bir daha bir masa arxasında əyləşməyəcəyəm" adlı dünyada siyasət yoxdur. Şimali Koreyada Azərbaycan cəmiyyəti Jirinovski haqqında hər sözü deyib. Jirinovskini təhqir də edib. İqtidardan tutmuş müxalifətə, cəmiyyətdən tutmuş ziyalıya qədər hər kəs. Amma həmin Jirinovski gəldi Bakıya. Siyasəti bunların üzərində körükləmək olmaz. Jirinovskidir gəlib, Azərbaycan haqqında fikrini dəyişib, lap yaxşı. Biz uzun illər bu tipli stereotipləri qoruyub-saxlamışıq. Vaxtilə hətta Saxarovun ermənilər haqqında dediklərinə biz birinci mövqe nümayiş etdirdik. Stravaytovanın mövqeyinə inciklikle yanaşdıq. Amma sonra onunla münasibətlər yeni müstəviyə çıxdı. Yəni haqqımızda pis fikirdə olan, bizi düşmən hesab edən, bizi tanımayan adamlara özümüzü tanıtmalıyıq və dost qazanmalıyıq. Mən demirəm ki, Jirinovski ağıllı adamdır, gəldi, gördü və bundan sonra adam olacaq. Amma hər halda, buna cəhd olunubsa, bunun özü normal bir şeydir.

***- Müsavatın qurultayı və başqan dəyişikliyi ilə bağlı nə deyə bilərsiniz?***

- Mən Müsavat üzvü deyil. Amma Müsavat Azərbaycanın istimai-siyasi həyatında mövqeyi olan bir partiyadır. Orda başqan dəyişikliyi nizamnamənin tələblərinə uyğun keçirilirdi. Seçilən başqana uğurlar arzulayıram. Mətbuat vasitəsilə də təbrikimi göndərmişəm. Əslində Azərbaycanda bu mədəniyyət formalaşmayıb ki, yeni seçilən partiya sədrlərini təbrik etsinlər. Adətən partiya sədrləri bir neçə dəfə seçilir deyə, bunun üzərindən sükutla keçilir. Amma Müsavatda yeni bir dönəm, yeni bir başqanlıq dönəmi başlayır. Hesab edirəm ki, stereotipləri dağıda bilən, demokratiya üçün, cəmiyyət üçün açıq ola bilən, funksional əməkdaşlıq sistemini genişləndirə bilən bir siyasət ortaya qoya bilsinlər. Bu istiqamətdə Arif bəyə uğurlar arzulayıram.

***- Ümid və Müsavat partiyaları arasında əməkdaşlıq məsələsi gündəmə gələ bilərmi?***

- Demokratiya üçün bizim əməkdaşlığımız vacib olacaqsa, bizə mövqeyindən, münasibətindən və bizim münasibətdən asılı olmayaraq hər zaman əməkdaşlıq edəcəyik. Çünki əməyimiz maraqları bizim üçün partiya maraqlarından öndə dayanır. Hesab etsək ki, əməkdaşlığımız cəmiyyətə, demokratikləşməyə xeyir verəcək, mütləq və mütləq əməkdaşlıq edəcəyik.

**Elşad PAŞASOY**



# Müsavatın vitrini

Xalid KAZIMLI

**Uzun müddətdən sonra Müsavatın qurultayı oldu, bitdi, tarixə qovuşdu. Amma qurultayın söz-söhbət bitməyib. Böyük partiyalara yaraşan durumdur. Yalnız avtoritar quruluşlu rejimlərdəki hakim partiyaların ali orqanının işi söz-sovsuz ötüşür. Bu, yalançı monolitlikdir.**

Azadlıq, ədalət olan yerdə, əvvəlcədən müəyyənləşdirilmiş qaydaların çərçivəsində fəaliyyət göstərildiyi təqdirdə çalxalanmalar, ekstesslər qaçılmazdır.

Əslində qurultayın nəticələri gözlənilməz deyil. Arif Hacılının başqan seçilməsi təbiidir. Qubad İbadoğlu da başqan seçilsəydi, bu da gözlənilməz olmayacaqdı, təbii olacaqdı.

Çünki məhz bu şəxslər partiyanın son 15 ildə yetişdirib qabağa çıxardığı siyasi xadimlərdir. Hər ikisi şanslıydı. Hər ikisinin tərəfdarlar korpusu güclüydü. Sadəcə, onlardan biri öz tərəfdarlarını daha yaxşı səfərbər edə bildi, 28 səs artıq aldı.

Qurultaydakı seçkinin gedişinin və səsvermənin nəticələrinin şübhə altına alınmasından söhbət gedə bilməz, amma bəzi xırım-xırda qüsurlar da olmamış deyil.

Mənə görə, partiyanın 8-ci qurultayının ən böyük qüsuru fraksiyaçılığın, qrupbazlığın yüksək nöqtəyə çatmasıydı.

Hamı müsavatçıdırsa, bir partiyanın üzvüdürsə, hamı eyni amala xidmət edirsə, hamı eyni məfkurəyə sahibdirsə, o zaman “bizim qrupdan daha çox adam məclis üzvü olsun”, “MNTK-nı götürməliyik” kimi planlar qurmağa, haray-həşirlə təbliğat-təşviqat aparmağa, hövllənməyə ehtiyac yox idi.

Qruplardan biri səksən sərbəst məclis üzvü yerinin səksənini də “götürmək” istəyirsə və bu istiqamətdə əvvəlcədən nömrəli siyahılar hazırlayırsa, bu, normal deyil.

Deyilə bilər ki, bu, siyasətin içində var, xaricdə də bir fraksiya digərinə qalib gəlmək üçün çalışır-çabalayır.

Birincisi, onlar artıq demokratik düzənə malikdirlər. Onlarda bu gün partiyada rəhbərliyi ələ keçirən şəxslər sabah deputat və nazir olurlar. Bizdə isə tamam fərqlidir.

Bizdə hələ müxalifət partiyaları ölkədə demokratiyanı bərqərar etmək uğrunda mücadilə verir, döyüşürlər. Döyüşə isə güclü olub, toparlanıb getmək lazımdır. Qrupbazlıq edəndə gücün ən azı iki dəfə azalır.

Bir şeyi düşünək. Tutaq ki, bülletenlərdə sıra nömrəsi kağız parçalarına yazılaraq qurultay nümayəndələrinə paylanan şəxslərin hamısı daha çox səs alıb məclis üzvü oldular, nə olacaqdı? O biri fraksiyadan olan hər kəs, o cümlədən ölkə ictimaiyyətinin tanıdığı, sevdiyi, dəyərli ziyalı hesab etdiyi şəxslər kənarda qalacaqdı.

Beləcə, partiyanın vitrininin görüntüsü gözəgəlimli, xoşagələn olmayacaqdı. Bundan sonra necə, hansı yolla ictimaiyyətin sevimlisi olmaq olar?

Yaxud dünən partiyanın başqanı olmaq üçün 200 səs alan şəxs tribunada çıxış edir, öz mülahizələrini irəli sürür və onun sözünü kəsir, səsini batırmağa çalışırlar. Budurmu ədalət və demokratiya?

Bu, bolşevizmdir. Özünə demokrat deyən kişi səbrli, təmkinli olacaq. Sona qədər. Sonra sözü varsa, deyəcək, arqumenti varsa, səsləndirəcək.

Yoxsa “bizi tənqid edən susmalıdır”, “bizə rəqib olan sıramızdan getməlidir”, “partiyaya yalnız biz rəhbərlik etməliyik” zehniyyəti ilə böyük partiya qurmaq da olmaz, qoruyub saxlamaq da.

Azərbaycan siyasətində belə edənlər əvvəllər də olub. Öz qrupunu hər vəchlə bir partiyada hakimiyyətə gətirmək istəyən qüvvə axırda bunu bacardı, amma bütün qrupları, fraksiyaları, azad adamları kənarlaşdırmaq hesabına etdi. Nəticədə böyük partiya 5 tirəyə ayrıldı. Qrup lideri isə “partiya sədri” oldu.

Belə görünür ki, Müsavatda bəzi şəxslər o ibrətamiz aqibətdən dərs götürməyiblər.

Müsavatın tavanı genişdir, onun altına çox adam yığışa bilər. Amma qrup ehtirası ağıl-kamala üstün gələcəksə, partiyanın parlaq simaları mənasız sıxışdırılmalara məruz qalacaqsa, bu, iş yürüməyəcək.

Qurultaydan sonrakı günlərdə elə bir təmayül sezdim. Bu narahatlığımı yazdım ki, bəziləri tendensiyanın yanlış istiqamətdə getdiyini bilsinlər. Məndən söyləməsi...

# Müsavatın qurultayı: ikinci gün - qalmaqalın səbəbi nə olub?

## Namizədlərin tərəfdarları arasında söz savaşı baş verib; Qubad İbadoğlu təbliğat zamanı İsa Qəmbərin adından istifadə edildiyini bildirib

**Müsavat 27 sentyabrda çoxdan gözlənilən qurultayını keçirdi. Partiya yeni başqanını seçdi. 4 namizədin başqanlıq uğrunda mübarizə apardığı yarışmada Arif Hacılı 228 səslə qalib gələrək, Müsavatın növbəti 4 ildəki başqanı seçildi.**
**Sentyabrın 28-də partiya qərargahında qurultayın ikinci mərhələsi keçirilib.**



Medianın diqqətindən kənarda qalan qurultayın ikinci günü əslində daha qaynar və rəngarəng olub.

Toplantıda əsas məsələ MNTK və Məclisin nəticələri, proqram və nizamnamə dəyişikliyinin təsdiqi, qurultay günü başa çatdırıla bilməyən məsələlərin həll edilməsi olub. Amma qurultay nümayəndələrinin kifayət qədər iştirakı olmadığına görə yalnız MNTK-nın nəticələri elan olunub. Qurultay günü təsdiq olunan Məclisə seçkilərin nəticələri tanınıb. Qərara alınıb ki, proqram və nizamnaməyə edilən dəyişikliklər 5-6 ay ərzində növbədənkənar çağırılan qurultayda müzakirə edilsin və təsdiq olunsun.

Təşkilat Komitəsi qurultay günü görə bilmədiyi işi bu toplantıda başa vurub. Çıxışlarda seçkilərin azad və demokratik keçirildiyi vurğulanıb. Yeni seçilmiş başqan və başqanlığa namizədlər çıxış ediblər.

**Türkiyədən qurultaya qonaq qismində iştirak etmək üçün çağırılan Azərbaycan Kültür Dərnəyinin rəhbəri Cəmil Ünal hər kəsi salamlayaraq, seçkilərin demokratik şəkildə keçirildiyini bildirib:** “Müsavat öz adına layiq seçki keçirdi. Hər kəsə öz təşəkkürümü bildirirəm. Yeni seçilmiş başqan Arif Hacılını təbrik edirəm”.

**Sabiq başqan İsa Qəmbər də seçkiləri müsbət dəyərləndirib:** “Müsavat bir daha ölkəmizdə azad seçki keçirməkdə nümunə göstərdi. Bütün müsavatçılara demokratiyaya sadiq qaldıqlarına görə minnətdarlığımızı bildiririk”.

**Yeni seçilmiş başqan Arif Hacılı ona göstərdikləri etimada görə qurultay nümayəndələrinə təşəkkür edib:** “Seçkidən öncə də qeyd etmişdim ki, başqan seçilərəmsə, hər kəsə qucaq açacam. Yenə də hər kəslə danışıqlara gedəcəm. Müsavatımız üçün əlimdən gələn hər şeyi edəcəm”.

**Professor Almaz Əliqızı** da çıxışında bəzi nüanslara toxunaraq, seçkilərdən razı qaldığını söyləyib.

**Daha sonra başqanlıq seçkilərində namizəd olan şəxslərin çıxışları başlayıb. Qubad İbadoğlu çıxışında deyib ki, seçki günündən razı qalsa da, bütövlükdə prosesdə ədalətlilik prinsipi pozulub:** “Təəssüf ki, mən bu insanları tanımamışam, seçki prosesi mənə bu adamları tanıtdı. Seçkinin azad və şəffaf olmasına heç bir şübhəm yoxdur, amma seçkidə ədalətlilik prinsipi pozulub. Bütün bunlara baxmayaraq, mən bu hadisəni Cəmil Ünala görə bağışlayıram. Çünki biz bu yola çıxmışıqsa, bu yoldan dönməyəcəyik”.







**Qubad İbadoğlu özünün və tərəfdarlarının Müsavatda heç bir seçkili orqanlarda təmsil olunmayacaqlarını da bildirib:** “Mən və tərəfdarlarım Müsavatda heç bir seçkili orqanlarda təmsil olunmaq niyyətində deyilik. İndi burada başlarını aşağı salıb oturublar, amma rayon təşkilatlarının sədrləri bilir ki, kimlər zəng vurub deyirdilər ki, İsa Qəmbər filan namizədi dəstəkləyir, siz də ona dəstək olun”.

**O bildirib ki, hazırda Müsavatda dəyişikliklərə ehtiyac var. Onun sözlərinə görə, partiyanın qurultayı ərəfəsində bəzi ədalətsizliklərə yol verilib:** “Biz növbəti dönəmdə partiyanın yeni seçilmiş rəhbərliyinə baxacağıq ki, görək, onlar Müsavatı hara aparır? Buna uyğun qərarımızı verəcəyik. Müsavat qurultay nümayəndələri arasında Gənclər Təşkilatının cəmi iki üzvü vardı. Çünki əvvəldən prosesin necə olacağı bilinirdi. Divan üzvləri Hökumə İbrahimli, Məryəm Oruclu və Vurğun Əyyub kimi şəxslərin adı qurultay nümayəndələrinin siyahısına daxil edilməyib. Çünki onların mövqeyi məlum idi”.

Bundan sonra zalda səs-küy yaranıb. Arif Hacılının tərəfdarları Qubad İbadoğlunun çıxışına etiraz ediblər. Müsavatın sabiq başqanı İsa Qəmbər isə qurultay nümayəndələrini sakitləşdirməyə çalışıb.

**Q.İbadoğlu yeni başqan Arif Hacılını nəzərdə tutaraq: “Öz komandanız var və mən sizə uğurlar arzu edirəm” - deyə çıxışını yekunlaşdırıb.**

**Müsavatın sabiq başqanı İsa Qəmbər isə Q.İbadoğlunun bəzi ittihamlarına cavab verib:** “Əgər şəffaf və demokratik seçki keçirilirsə, burada narazılığın olması təbiidir. Əslində bilmədiyiniz məqamlar çoxdur. Hər bir məqamın ayrıca izahatı var. Vurğun Əyyub qurultay nümayəndəliyi seçilən ərəfədə Azərbaycanda olmayıb. Vurğun Əyyub Türkiyəyə getməzdən əvvəl də mənimlə görüşüb, Divan üzvlüyündən istefa verməyə məcbur olduğunu dedi. Ancaq mən bunun qarşısını aldım və bildirdim ki, Azərbaycana qayıdandan sonra istənilən vaxt fəal siyasətlə məşğul ola bilər. Buna görə istefa verməsinə zərurət yoxdur. O da mənim fikrimlə razılaşdı”.

**İ.Qəmbər qeyd edib ki, əvvəlcədən kimi başqan görmək istədiyini açıqlamayıb:** “Əgər mövqeyimi əvvəlcədən açıqlasaydım, səs fərqi bu qədər az olmazdı”.

**Müsavatın yeni başqanı A.Hacılı isə deyilənlərə cavab vermək istəmədiyini, hər kəslə işləməyə hazır olduğunu deyib:** “Mən bütün hallarda kimənə get yox, gəl demişəm”.

**Başqanlığa digər namizəd Tural Abbaslı da seçkilərin nəticələrini və Arif Hacılının qələbəsini tanıdığını söyləyib:** “Seçkidən öncə qeyd etdiyim kimi, yeni seçilən başqanı təbrik etmişəm. Seçkilərin nəticələrini tanıyıram. Düşünürəm ki, Müsavata layiq seçki keçirildi. Mənə göstəriləcək etimada uyğun olaraq, istənilən vəzifəni icra etməyə hazıram. Çünki mən Müsavata vəzifə üçün gəlməmişəm. Bu baxımdan, post uğrunda mübarizə aparmıram. Müsavat ideologiyadır. İnsanları bir yerə toplayan, sadiq qaldığımız ideologiya. Yeni başqana gələcək fəaliyyətində uğurlar arzulayıram”.

**Tədbirin sonu da qalmaqallı keçib. Namizədlərin tərəfdarları bir-birinin ünvanına ağır ittihamlar səsləndiriblər. Lakin döyülən, xəsarət alan olmayıb.**

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014

**Ümid Partiyası İcra Aparatının rəhbəri Taleh Əliyev partiyanın bələdiyyə seçkilərinə hazırlığı ilə bağlı mətbuat xidmətinin suallarını cavablandırıb. Aparat rəhbərinin müsahibəsini təqdim edirik.**

# "Proseslərin dayanmaması üçün çaba veririk"

## Taleh Əliyev: "İnsanları daha çox seçki mühitinin, bələdiyyələrin statusunun olmaması, seçkilərin saxtalaşdırılması, səslərin necə qorunması düşündürür"



***- Taleh bəy, seçkilərə hazırlığın vəziyyəti necədir? Partiya funksionerlərinin bölgələrə səfərləri və görüşləri gözləntlərinizi doğruldurmu?***

- Bildiyiniz kimi, Ümid Partiyası 2013-cü ilin prezident seçkilərindən dərhal sonra növbəti bələdiyyə seçkilərinə hazırlıqla bağlı qərar verib və bu istiqamətdə işlərə başlayıb. Bu ilin əvvəlindən başlayaraq ilkin namizədlərin siyahısı hazırlanıb və may ayından etibarən Mərkəzi Aparata təqdim olunub. Eyni zamanda bələdiyyə subyektləri üzrə seçki qərargahlarının, özəklərin yaradılması istiqamətində fəaliyyət aparılıb. Fürsətdən istifadə edərək partiyanın təşkilatlanması işini də gücləndirmişik. Avqust ayının əvvəlindən etibarən isə bələdiyyə seçkilərinə hazırlıqla bağlı Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə və partiya funksionerləri bölgələrə səfərlər edir, namizəd olacaq şəxslərlə görüşür, vəziyyəti yerində öyrənir, onların suallarını cavablandırır, problemlərlə tanış olur ,partiyanın seçkilərə qatılmasının səbəb və məqsədlərini açıqlayırlar. Bu günə qədər Gəncə, Samux, Göyçay, Qəbələ, Şəki, Sabirabad, Masallı, Lənkəran, Sumqayıt və bir neçə digər bölgələrə səfərlərimiz olub. Şəki və Qəbələ rayonunda keçirilən görüşdə partiya sədrimiz cənab İqbal Ağazadənin özü şəxsən iştirak edib. Bu günə qədər baş tutan səfərlərimiz çox uğurlu olub. Hesab edirəm ki, bu səfərlər partiya fəallarını və namizəd olacaq şəxsləri seçkilərə həvəsləndirir. Çalışırıq ki, namizəd irəli sürəcəyimiz subyektlərin sayı çox olsun və maksimum sayda namizədlə seçkidə iştirak edək. Daha çox böyük bələdiyyələrdə mübarizə aparmağı hədəfləmişik. Namizədlərimizin çoxu ali təhsilli, ictimai nüfuza malik olan şəxslərdir. Gənclərin və qadınların yerli idarəetmə orqanlarına namizədliyinin irəli sürməsinə xüsusi önəm veririk. Seçkiyə start verilənə qədər hazırlıqlarımızı tam başa çatdırmağı planlaşdırmışıq. Hələlik namizədlərlə bağlı ətraflı məlumat vermək istəmirəm. Yaxın günlərdə bir neçə bölgəyə planlaşdırdığımız səfərlər baş tutduqdan sonra seçki hazırlığı ilə bağlı ictimaiyyətə geniş açıqlama veriləcək.

***- Görüşlər zamanı hansı problemlərlə qarşılaşırsınız? Namizəd olacaq şəxsləri daha çox hansı problemlər düşündürür?***

- Təbii ki, insanları daha çox seçki mühitinin, bələdiyyələrin statusunun olmaması, seçkilərin saxtalaşdırılması, səslərin necə qorunması düşündürür və daha çox suallar da bu istiqamətdə olur. Yuxarıda sadalanan amillər demək olar insanları məyus edir, həvəsdən salır və prosesin getməsini əngəlləyir. Biz bütün çıxışlarımızı bu istiqamətdə qururuq. Birlikdə müzakirələr aparır və çıxış yollarını arayırıq. Hakimiyyətin planlı şəkildə uzun illər apardığı seçki siyasəti, namizədlərə qoyulan ayrı-seçkilik, təzyiq və basqılar təəssüf ki, bu mənzərəni yaradıb. Xalqı prosesdən kənar saxlamaqla asanlıqla istədiyinə nail olmaq. Lakin biz bunları bilir, görüşdüyümüz insanlara açıqlayırıq. Proseslərin dayanmaması üçün çaba veririk. Ölkənin demokratikləşməsi üçün mütləq proses getməlidir. Görüşdüyümüz insanlar, partiya fəalları arasında kifayət qədər təcrübəli və prosesləri analiz edə biləcək fədakar dostlarımız var. Bu fədakar insanların sayəsində prosesi aparmağa, xalqın prosesdə iştirakını təmin etməyə çalışırıq.

Baş verə biləcək qanunsuzluqlara qarşı isə hüquqi müstəvidə mübarizə aparmağı düşünürük. Bu istiqamətdə seçki ekspertləri və hüquqşünaslarla mütəmadi məsləhətləşmələr aparırıq.

## Təbrik

***Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə son qurultayında Müsavat Partiyasına başqan seçilən Arif Hacılını təbrik edib.***

***Təbrikdə deyilir:***

***Hörmətli Arif bəy!***

***Müsavat Partiyasının son qurultayında başqan seçilməyiniz uzun illər rəhbərliyində təmsil olunduğunuz təşkilatın və onun dəyərli üzvlərinin Sizə böyük etimadıdır.***

***Bu böyük etimad Sizin və təşkilatın üzərinə böyük məsuliyyət qoyur. Azərbaycanın demokratikləşməsi, siyasi institutların rolunun aktivləşməsi, insan hüquq və azadlıqlarının qorunması, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli, sosial ədalətin bərqərar olması bu gün hər bir Azərbaycan vətəndaşını ciddi narahat edir.***

***İnanmaq istərdik ki, yeni başqan kimi bu problemlərin həllində cəmiyyətə açıq, funksional əməkdaşlığa səy göstərən bir lider olacaqsınız.***

***Bu vəzifədə Sizə və müsavatçılara uğurlar arzulayır, Azərbaycan cəmiyyətinin maraq və mənafeyi naminə dözümlü, ardıcıl, açıq siyasət aparmağınızı ümid edirik.***

***İqbal Ağazadə***
***Ümid Partiyasının sədri,***
***Millət vəkili***

# Ümidin Gənclər Təşkilatı "layihə yazılışı" mövzusunda seminar keçirib









**Sentyabrın 27-də Ümid Partiyası Gənclər Təşkilatı "layihə yazılışı" mövzusunda gənclərə növbəti təlim keçirib. Təlim iştirakçılarına interaktiv metodla layihə yazılışının planlaşdırma mərhələləri, problemin təsvir edilməsi, məqsəd və vəzifələrin müəyyən edilməsi, fəaliyyətlərin planlaşdırılması, layihə yazılışında risk və indikatorlardan istifadə, büdcə tərtibatı və digər məsələlərlə bağlı bilik və bacarıqlar öyrədilib.**

İştirakçılar layihə yazılışı ilə bağlı nəzəri biliklər almaqla yanaşı, kiçik qruplarda layihə tərtibatının hər bir mərhələsini praktiki şəkildə hazırlayıblar. Layihə çərçivəsində onlara Azərbaycan Gənclər Fondunun layihələri qəbuletmə proseduru, belə əsas prinsipləri haqqında ətraflı məlumat verilib, fondun ərizə forması əsasında iştirakçılara layihə yazılışı öyrədilib.

Qeyd edək ki, GT fəaliyyət planına əsasən 2 aydan artıqdır ki, gənclər üçün beynəlxalq aləmə birbaşa çıxış yolu olan ödənişsiz ingilis dili dərslərinə və conversation-lara start verib. Bundan əlavə, təşkilat hər həftə xaricdə təhsil, iqtisadiyyat, siyasət, hüquq, psixoloji mövzularda da daxil olmaqla, yerli və beynəlxalq dərəcəli ekspertlərin, təlimçilərin iştirakı ilə təlimlər keçirir.

Bu silsilədən olan təlimlərin mütəmadi olaraq keçirilməsi nəzərdə tutulur. Arzu edən hər bir gənc iştirak edə bilər.

## Başsağlığı

**Ümid Partiyası Qubadlı rayon şöbəsinin sədri Qulu Mahmudovun ailəsində ağır itki üz verib. Onun anası Məmmədova Tutu Möhsün qızı vəfat edib.**

**Millət vəkili, Ümid Partiyasının sədri İqbal Ağazadə Qulu bəyin anasının vəfatından kədərləndiyini bildirir, mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir və səbir diləyir.**

**Allah rəhmət eləsin!**

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014



# Yalan boğaza çıxanda...

Zamin HACI
zaminhaci@gmail.com

**Yapistlərin təbliğat kampaniyalarında çoxlu ziddiyyətlər ortaya çıxır, bu da rejimin mahiyyəti ilə bağlıdır. Bu mövzuda atalarımızın yaxşı məsəli var, deyir, yalan iki başlı olar.**

Məsələn, görürsən deyirlər kasıbçılıqla mübarizə uğurla başa çatmaq üzrədir, ancaq hər il ünvanlı sosial yardım alanların sayının artdığını statistik hesabatlarda göstərirlər. Anlamaq olmur ki, yoxsulların sayı azalırsa, təzə yoxsullar hardan çıxır. Bəlkə də onlar kosmosdan milli peykimizə minib gələn yadplanetlilərdir. Nə biləsən...

Yaxud, iqtisadi uğurlardan, bölgənin lider dövləti olmağımızdan dəm vururlar, günün birində isə bəyan edilir ki, camaat yas məclislərini yola verə bilmir, bankdan kredit götürüb xərcə düşürlər və sairə.

Belə ziddiyyətlərdən biri də Ermənistanın boşalması haqda ənənəvi təbliğat materiallarına aiddir. Yaxşı, hesab edək doğrudan düşmən Pirr qələbəsinin altını çəkir, ermənilər kasıblıq üzündən ölkəni atıb xaricə qaçırlar, bizim uğurlarımızı görüb partlamaya düşüb ölürlər, xüsusən xarici diplomatiya sahəsində Məmmədyarovun kəskin zərbələrinə dözmürlər. Bəs o zaman yapistlərin "Ermənistan Dağlıq Qarabağ və ətrafında Suriyadan, Livandan gələn ermənilərin qanunsuz məskunlaşması proqramını aparır" tezisi necə olsun? Yeri gəlmişkən, internetdə tez-tez belə videokadrlar göstərilir, elə ermənilər özləri Zəngilanda, Laçında, Kəlbəcərdə, Dağlıq Qarabağda xaricdən köçürülən erməniləri yerləşdirdiklərini gizlətmirlər. Bu yöndə hətta dövlət proqramları var: hər ailəyə hansı ölçüdə mənzil veriləcək, uşaq pulu nə qədər olacaq və sairə.

İndi belə çıxır ki, Ermənistan boşalır, Qarabağ və ətrafı isə dolur? Ordan-burdan qaçan ermənilər bizim əraziyə doluşursa, bunun nəyi bizim üçün uğurludur?

Son günlər Rusiya ilə yaxınlaşma siyasəti də elə bu Ermənistanla münasibətlər fonunda əcaib bir şəkil almaqdadır. Rus məmurlar sürü ilə Bakıya axışıb yapistlərlə ağız-ağıza verərək deyirlər ki, Rusiya ilə Azərbaycanın mənafeləri üst-üstə düşür, bizim qardaşlığımız əbədidir, daimidir, dönməzdir və sairə. Bir o qalıb ki, Nəriman Nərimanovun "Azərbaycanın əbədi xoşbəxtliyi Rusiya ilə birliyindədir" cümləsini təzədən "Nizami" metrosuna gedən yolun üstünə - köhnə Bakı avtovağzalı olan yerə yapışdırsınlar.

Yaxşı, hesab edək Rusiya bizim ən yaxın dostumuzdur. Bəs o zaman Ermənistanı davamlı olaraq "Rusiyanın forpostu, ələltisi" elan edən yapist daxili-xarici siyasət hara uçur? Əgər Ermənistan necə deyərlər, heç zaddırsa, arxasındakı Rusiyanın hesabına lotuluq eləyib üstümüzə gəlirsə, bizim Rusiya ilə dostluğumuzun mənası nədir? "Düşmənimin dostu mənim dostumdur" - o məşhur aforizm bu cür idiot şəklə düşmürmü?

Ölkədə, cəmiyyətimiz arasında mistisizmin, cürbəcür falabaxanların, ekstrasenslərin, cinçıxardanların meydan sulaması elə bu cür məntiqsiz həyatdan, qeyri-rasional, ağılsız mülahizələrin çoxluğundan doğur. İstər-istəməz bizim həyatımız onların həyatının yanına bağlanıb, "həmrəng olmasa da həmxasiyyət olur". Yapizmin məntiqsiz yalan-palanları (bu bir az tavtalogiya alındı, üzrlü sayın, çünki yalan həmişə məntiqsizdir) bizim də həyatımızı məntiqsiz yalana çevirir. Adamlar aşkarda guya yaşayırlar, ancaq özləri də gizlində etiraf edirlər ki, belə yaşamaq olmaz. Təhsil guya pulsuzdur, ancaq hamı məktəbə, müəllimə külli miqdarda pul xərcləyir. Misal üçün təhsili yazdım, bütün sahələrdə eyni vəziyyətdir: yalan xirtdəyə qalxıb.

Görəsən insan yalandan boğulmağa başlayanda ayağının altına kimi qoyur?

# Ölkəmizin adı Obamanın "qara siyahısı"na niyə düşdü?




# Qərb-Rusiya savaşında Azərbaycanın "üçüncü yolu"

## ABŞ jurnalından rəsmi Bakının xarici siyasətinə dair ilginc iddia; "Foreign Affairs": "Stavka onadır ki, seçim etmək məcburiyyəti qalmasın..."

**Azərbaycan hakimiyyətinin Moskva ilə son günlər daha da isinişən əlaqələri fonunda Qərb paytaxtları rəsmi Bakı ilə münasibətlərində sərt bəyanatlar tonunu seçib. Qərb Azərbaycanın da Rusiyaya qarşı sanksiyalara qoşulmasında israr etmir; amma aydın şəkildə münasibətlərin bu dərəcədə yaxınlaşmasından da məmnun olmadığını göstərir.**

Söhbət əlbəttə ki, Rusiyaya göndərilən alma-armud, pomidor-xiyar məsələsindən getmir. Qərb sanksiyalarla Rusiyanı yetərincə silkələyib. Neftin ucuzlaşması ölkəyə əlavə problemlər yaradıb, Dünya Bankı şimal qonşumuzda ilin sonunadək inflyasiyanın 8 faiz həddində olacağını proqnozlaşdırıb. Rublun ABŞ dollarına nisbətdə məzənnəsi 18 faizə qədər ucuzlaşıb. Ölkənin büdcəsini dolduran nəhəng şirkətlərin xaricə çıxışları bağlanıb və sair... Kreml də yalnız Asiya və postsovet ölkələrinin köməyi ilə bu böhrandan qurtula bilməyəcəyinin fərqindədir.

Ukrayna böhranından sonra dünyanın qlobal siyasətinə qütbləşmə, "soyuq müharibə" yenidən qayıdıb. Bu savaşda Azərbaycanın "yaralı ayıya", yoxsa "dikbaş Qərbə" dəstək verəcəyi bəlkə də "savaş meydanına" ciddi təsir də etmir. Fəqət, indi Qərb də, Rusiya da özü üçün "qara siyahı" tutub. Dostlar və düşmənləri oraya yazırlar. Azərbaycanın Rusiya kimi qəvi qonşusu və Qarabağ kimi problemi olmasaydı, bu davada heç tərəf seçməyə də bilərdi; ya da üzünü birmənalı olaraq neftini axıtdığı Qərbə sarı tutardı. ABŞ prezidenti Barak Obamanın Azərbaycanın adını Rusiyadan savayı hansı ölkələrin yanında çəkdiyinə bir daha diqqət edək. Venesuela, Çin...Hər iki ölkə Rusiyaya açıq dəstək verir. Azərbaycanın Obamanın "qara siyahı"sı"na düşməsinin əsas səbəbi də bu mövqedir. Əgər QHT-lərə təzyiq və son həbslər olmasaydı, başqa bir bəhanə tapılacaqdı. Təəssüf ki, iqtidarımız da bu bəhanələri indi siyasətlərini mikroskopla izləyən Qərbə istifadə üçün verir. Bəlkə də bilərəkdən. İndilikdə "bilərəkdənin" arxasında gizlənə biləcək məntiqi və ya səbəbi tapmaq çətindir.

ABŞ-ın Xarici Əlaqələr Şurasının *(Council of Foreign Relations)* "Foreign Affairs" jurnalı bu mövzuda sensasion sayıla biləcək iddia ilə çıxış edib. Karnegi Fondunun proqram direktoru Tomas de Vallın Azərbaycanın xarici siyasət seçiminə dair məqaləsindən virtualorg.az saytı bəzi sitatlar verib.

**"Azərbaycan qərbyönümlü olmaq istəmir. Bakının Böyük Strategiyası haqda ritorika və reallıqlar" başlıqlı məqalədə Tomas de Vall yazır:** "Ukrayna böhranı digər postsovet ölkələrini də amansız xarici siyasət seçimi qarşısında qoydu. "Foreign Affairs" jurnalında bugünlərdə dərc edilmiş məqaləsində London Universitet Kollecinin professoru Ceyms Yan şübhəli əsaslara dayanan təxribatçı argument irəli sürüb. Yan iddia edir ki, Azərbaycan seçim qarşısında qalıb. "Ya Qərbdən dəstək almaq üçün liberal islahatlar aparmalı, eyni zamanda Rusiya və İranla oynamalı, ya da riskə gedərək tamamilə Qərbi seçməlidir" deyə, o yazıb. Müəllifə görə, bu analiz ondan irəli gəlir ki, Bakı həqiqətən Qərbin liberal ideyalarına sadiqdir. Həqiqət isə tamam ayrıdır: Azərbaycan enerji sərvətlərindən istifadə edərək möhkəmlənib və indi özünü o qədər güclü hiss edir ki, üçüncü yolu seçir. O, Rusiyanın avtoritar modelini qəbul edir, eyni zamanda özünü Qərbin energetika və təhlükəsizlik məsələlərində "strateji tərəfdaşı" kimi təqdim edir. Stavka onadır ki, Rusiya və Qərb arasında seçim etmək məcburiyyəti qalmasın, Azərbaycan hər iki yolu istifadə edə bilsin. Ölkə elitası ümid edir ki, Birləşmiş Ştatlar və Avropa ilə tranzaksion münasibətlər onlara öz sərvətlərini artırmağa, eyni zamanda Azərbaycandakı oliqarxik siyasi sistemi təhdid altında qoymamağa imkan yaradacaq".

**Tomas de Vall hesab edir ki, bu plan hazırda sınaq dövründədir.** "Qərb liderləri buna daha çox diqqət yetirməli və özlərinə sual verməlidir ki, Azərbaycanın yeritdiyi indiki sərt xətt onun özü və ətrafı üçün nə deməkdir", - deyə ekspert vurğulayır.

**Polşada fəaliyyət göstərən Şərq Araşdırmaları Mərkəzi də Azərbaycan hakimiyyətinin Qərblə və Rusiya ilə münasibətlərinə dair təhlil hazırlayıb. Təhlildə deyilir ki, Azərbaycan hakimiyyətinin son dövrlərdə apardığı daxili siyasət bu ölkəni Avropadan xeyli uzaqlaşdırıb.** "Hakimiyyətin apardığı repressiya siyasəti Qərbin, o cümlədən Avropanın üstünlük verdiyi demokratik dəyərlərə ciddi zərbədir. Hakimiyyət müxalif qüvvələri xeyli mənada sıradan çıxarmaqla özü ilə cəmiyyət arasında bağın qırılmasına səbəb olub. Belə siyasət ölkədə ciddi siyasi və sosial gərginlik, proqnozlaşdırılması çətin olan vəziyyətin yaranması ilə nəticələnə bilər. Azərbaycan hakimiyyətinin repressiya siyasəti onu Qərbdən uzaqlaşdırıb, Rusiyaya yaxınlaşdırıb. Bu isə regionda Qərbin mövqeyinin zəifləməsinə, Rusiyanın isə güclənməsinə gətirib çıxarır", - deyə, hesabatda bildirilir.

Azərbaycanın mövqeyi bu "savaş meydanında" qüvvələr nisbətini ciddi dəyişmir və dəyişməyəcək də. Amma yanğında hətta quşun dimdiyində gətirdiyi suyun da qiyməti var... Azərbaycanın "üçüncü yol" dedikləri rəsmi Bakının xarici siyasət kursunda yenilik deyil. Qərb və Rusiya arasında savaş gedərkən Azərbaycanın özünü oda atması-bu və ya digər tərəfə xüsusi dəstək verməsi əlbəttə ki, ziyanlı siyasət olardı. Amma Rusiyaya sıcaq münasibət, Qərbə isə sərt üzünü göstərmək də perspektivli siyasət hesab oluna bilməz. Bəzi mətbuat orqanlarında Rusiyaya yaxınlaşmağın, Qərbin buradakı "adamlarının" *(oxu; maraqlarının)* isə həbsxanaya göndərilməsinin hakimiyyət daxilində narazılıq yaratdığı barədə iddialar var. Məlumatlara görə, Azərbaycana ard-arda gələn emissarlar hakimiyyəti Rusiyaya investisiya qoymağa, mədəni şəkildə pul istəyirlər. Ekspertlər bu addımın indiki məqamda riskli olduğunu deyirlər.

Azərbaycanın daxili siyasətini də yaxından təqib edən Tomas de Vallın məqaləsində xüsusi vurğuladığı bir məqam da var: yaranmış vəziyyətdən oliqarxların narahatlığı. Politoloq "üçüncü yolun" onların "öz sərvətlərini artırmağa, eyni zamanda oliqarxik siyasi sistemi təhdid altında qoymamağa imkan yaradacağı" qənaətindədir. Amma hələ ki Qərb Bakıda sıxışdırılır, Rusiya isə hətta Jirinovski səviyyəsində geniş meydan verilir. Hələ ki...

**"ABŞ prezidenti Barak Obamanın Azərbaycanın adını Rusiyadan savayı hansı ölkələrin yanında çəkdiyinə bir daha diqqət edək. Venesuela, Çin...Hər iki ölkə Rusiyaya açıq dəstək verir"**

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014

**"Human Rights Watch" təşkilatı Azərbaycanla bağlı növbəti hesabatını açıqlayıb. AzadlıqRadiosunun məlumatına görə, hesabatda qeyd olunur ki, Avropa Şurasında altı aylıq sədrliyi başa çatmaq üzrə olan Azərbaycanda uzun illərdir ki, azad səslərə qarşı davam edən repressiya artıq krizis həddinə çatıb.**



# "Human Rights Watch"dan Azərbaycanla bağlı sərt hesabat

## Əli Həsənov da təşkilatın sənədinə sərt cavab verdi

"Azərbaycan hökumətinin davamlı olaraq hüquq-müdafiəçilərinə və digər hökuməti tənqid edən şəxslərə təzyiqi onun Avropa Şurası qarşısındakı öhdəliklərinə hörmətsizlik etdiyini göstərir"- deyə təşkilatın Cənubi Qafqaz üzrə nümayəndəsi Georgi Gogia bildirib.

Hesabatda qeyd olunur ki, Azərbaycan illərdir tənqidi boğmasına və bu təşkilata daxil olarkən üzərinə götürdüyü öhdəliklərə əməl etməməsinə baxmayaraq, bu ilin mayında Avropa Şurası Nazirlər Kabinetinə altı aylıq sədrliyə başladı. Lakin köhnə problemlərin həllini tapması əvəzinə hökumət təzyiqləri daha da artırdı, saxta cinayət ittihamı ilə hüquq-müdafiəçilərinə, jurnalist və fəallara qarşı hücuma keçdi.

Hesabatda bildirilir ki, Azərbaycan son iki ildə əsassız ittihamlarla azı 50 müstəqil və müxalif siyasi fəalları, jurnalist, blogger və hüquq-müdafiəçilərini həbs etdi və onların əksəriyyəti hələ də həbsdədir. Bakı QHT-lərin fəaliyyətini tənzimləyən məhdudlaşdırıcı yeni qanunlar və digər taktikalar, o cümlətən təşkilatın bank hesablarını dondurmaqla müstəqil qrupları susmağa vadar edib.

Gogia sonda bildirib ki, Avropa Şurası rəhbərliyi Bakının davranışlarını ən sərt şəkildə mühakimə etməlidir.

Prezident Administrasiyası (PA) İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov "Human Rights Watch" təşkilatının Azərbaycanla bağlı yaydığı növbəti hesabata münasibət bildirib.

PA-nın şöbə müdiri publika.az-a açıqlamasında deyib ki, Azərbaycan fundamental demokratik dəyərlərə sadiq, vətəndaş cəmiyyətinin inkişaf etdiyi və bütün azadlıqların qorunduğu bir ölkədir.

Onun sözlərinə görə, indi Azərbaycanda yüzlərlə qeyri-hökumət təşkilatı, kütləvi informasiya vasitəsi qanun çərçivəsində, heç bir məhdudiyyətlə üzləşmədən, sərbəst fəaliyyət göstərir: "İnsanlar öz fikirlərini azad şəkildə ifadə edirlər, vətəndaş cəmiyyəti institutlarının, medianın inkişafına dövlət tərəfindən hərtərəfli dəstək göstərilir. Buna görə də insan hüquq və azadlıqlarının vəziyyəti ilə bağlı Azərbaycan cəmiyyətinin, QHT sektorunun, yüzlərlə KİV-in ümumi rəyi nəzərə alınmadan, 3-5 nəfərin sifarişli məlumatı əsasında hazırlanmış belə açıqlamalar, bəyanatlar və sənədlər qərəzlidir, əsassızdır və subyektiv xarakter daşıyır".




### "Şübhəli bilinən təşkilatların fəaliyyəti araşdırılır"

**Ə.Həsənov qeyd edib ki, xarici fondlardan maliyyələşən bəzi yerli QHT-lər uzun illər ərzində qeyri-şəffaf fəaliyyət göstərib, qanunların tələblərinə məhəl qoymayaraq aidiyyəti dövlət orqanlarına heç bir hesabat verməyiblər:** "Hazırda Qərbin demokratik standartlarına uyğun olaraq, QHT-lərin fəaliyyətini tənzimləyən qanunlara edilən müvafiq düzəlişlər və qanunvericiliyin tələblərinin yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlər vətəndaş cəmiyyəti institutlarının şəffaf fəaliyyətinin, onların hesabatlılığının təmin edilməsi, bu sahədə mövcud pozuntuların aradan qaldırılması məqsədi daşıyır. Hesab edirik ki, istənilən sahədə şəffaflığın olmaması korrupsiya və digər qanun pozuntularına birbaşa yol açan başlıca səbəblərdən biridir. Təbii ki, qanunları pozmaqda şübhəli bilinən təşkilatların fəaliyyəti araşdırılır və faktlar təsdiqini tapdıqca müvafiq ölçü götürülür. Bu isə öz növbəsində, xaricdən aldıqları milyonlarla qrant vəsaitini şübhəli məqsədlərə yönəldən və dövlət orqanlarının qanuni tələblərini qulaqardına vuran ayrı-ayrı təşkilatları, xüsusilə də onların "demokratiya carçısı" kimi çıxış edən xarici havadarlarını qane etmir. Belə demək mümkündürsə, "5-ci kolon" öz missiyasını yerinə yetirmək imkanlarından məhrum edilir ki, bu da nəticə etibarilə mövcud mexanizmləri yaradan dairələrin Azərbaycana təzyiq rıçaqlarını zəiflədir. Hazırda bəzi xarici dairələrin və onların nəzarətində olan təşkilatların, medianın həddini aşan fəallığı da məhz bu amillə bağlıdır.

Təəssüf ki, müəyyən xarici dairələr insan hüquqları ilə bağlı təhrif olunmuş ayrı-ayrı halları ümumiləşdirərək müstəqil ölkələr barədə mənfi rəy formalaşdırmaq praktikasından geniş şəkildə yararlanırlar. Bu, düzgün yanaşma deyil. ABŞ Dövlət Departamentinin nümayəndəsi avqustun əvvəllərində Missuri ştatının Ferquson şəhərində vətəndaşların haqlı etirazlarına sərt şəkildə müdaxiləni, fövqəladə vəziyyətin elan olunmasını, silahdan istifadə, insan ölümləri, media və vətəndaş cəmiyyəti fəallarının hüquqlarının kobud şəkildə məhdudlaşdırılması hallarını ABŞ-ın daxili işi kimi xarakterizə etmişdi. Həmçinin ayrı-ayrı ekspertlər hökumətin həyata keçirdiyi sərt tədbirləri ictimai sabitliyi, cəmiyyətin təhlükəsizliyini təmin etməsi kimi qələmə vermişdilər. Ancaq bir gün öncə Nyu-Yorkda BMT-nin mənzil-qərargahı qarşısında humanitar xarakterli dinc aksiyanın qəddarcasına dağıdılmasının da ictimai təhlükəsizliklə əlaqəli olduğuna inanmaq çətindir. Həmçinin ABŞ və Avropanın inkişaf etmiş ölkələrində jurnalistlərin təqib olunması, informasiya resurslarının izlənməsi, bloggerlərin həbsi və digər hüquq pozuntuları ilə bağlı kifayət qədər faktlar mövcuddur. Əlbəttə, bütün bu hallar ümumiləşdirilərsə, dünyanın ən inkişaf etmiş ölkələrində belə demokratiyadan əsər-əlamət olmadığı iddia edilə bilər. Sual olunur: nəyə görə Azərbaycanı tənqid edən məlum dairələr bu faktları ümumiləşdirərək həmin ölkələrdə demokratiyanın durumuna münasibət bildirmirlər? Təəssüf ki, bu ikili standartlar Qərbin bəzi dairələrinin hətta region ölkələrinə münasibətində də özünü açıq şəkildə büruzə verir.

Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, Avropa Parlamentinin bir neçə gün öncə qəbul etdiyi qətnamə, ABŞ-ın ATƏT-dəki və Avropa Parlamentindəki nümayəndələri tərəfindən düzgün məlumatlandırılmayan prezident Barak Obamanın Klinton Qlobal Təşəbbüsünün illik toplantısında Azərbaycanla bağlı ifadə etdiyi fikir, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Varşavada keçirilən illik hesabat toplantısında səsləndirilən mülahizələr, habelə "Human Rights Watch", "Freedom House" və digər bu kimi xarici təşkilatların iddiaları obyektiv deyil və dövlətimizin müstəqil siyasətinə təzyiq göstərmək cəhdi kimi qiymətləndirilməlidir.

Həmin dairələrin nəzərinə çatdırmaq istərdik ki, hər bir hakimiyyətin, o cümlədən Azərbaycan iqtidarının qarşısında duran başlıca vəzifə xalqın milli maraqlarını, cəmiyyətin davamlı inkişafını və təhlükəsizliyini, ölkədə ictimai-siyasi sabitliyi, əmin-amanlığı təmin etməkdən ibarətdir. Azərbaycan müstəqil ölkədir, öz daxili və xarici siyasətini xalqın milli maraqlarına uyğun şəkildə həyata keçirir və heç bir halda tutduğu yoldan geri çəkilmək və kimlərinsə istəyinə uyğun hərəkət etmək niyyətində deyil".

# Bir qurultaya küncdən baxış...



Hüseynbala SƏLİMOV

**Əvvəlcə bəlkə də ondan başlamaq daha düzgün olardı ki, Bakı boyda şəhərdə, nəyin də olmasa da, böyük sarayların bol olduğu bir yerdə Müsavat partiyasına qurultay keçirmək üçün yer tapılmadı - bir il ərzində dəfələrlə müraciət edilməsinə baxmayaraq yerli hakimiyyət bunun üçün münasib bir yer "tapa" bilmədi...**

Amma fərq etmir, böyük təntənə və tərtibatla olmasa da, hər halda, partiya öz qurultayını keçirə bildi.

Üstəlik, hakimiyyətə yaxın mətbuatda verilən proqnozlar da düz çıxmadı- İsa Qəmbər partiya rəhbəri postundan istefa verdi.

Düzdür, düşünmürük ki, Arif Hcılının partiyaya başqan seçilməsi onun fəaliyyətində çox ciddi dəyişikliklərə səbəb olacaq. Ən azı indiki məqamda, sərt avtoritar siyasi sistem şəraitində bunu etmək olduqca çətindir...

Bəzən insanlarda, xüsusən də gənclər arasında belə fikrə təsadüf edilir ki, bütün bu uğursuzluqların səbəbi ondadır ki, milli Markslar, milli Engelslər və yaxud milli Leninlər yoxdur. Amma səbəb budurmu?

Yox, əvvəla, nə Marks, nə də Engels öz dövründə kapitalizmin praktiki cəhətdən süqutunu təmin edə bilmədilər.

Leninə gəldikdə isə o da Oktyabr inqilabi ərəfəsində verdiyi müsahibəsində sosializmin uzaq gələcəyin işi olduğunu və bəlkə də onun və dostlarının o günü heç görməyəcəyini demişdi...

Bunları niyə görə deyirik? Tarixdə şəxsiyyətlərin rolu şübhəsiz ki, böyükdür, amma həlledici deyil - hər hansı proses üçün tarixi şərait, zəmin yetişməyəndə hətta dahilər belə aciz qalır...

Ən azı öz tariximiz belə misallarla zəngindir. İndi şəxsiyyətlərindən qürur duyduğumuz birinci Respublika xadimləri də sovet istilasının və Respublikanın süqutunun qarşısını ala bilmədilər. Amma biz M.Ə.Rəsulzadəyə ona görə bu qədər önəm veririk ki, o, ən ümidsiz vəziyyətlərdə belə ruhdan düşməzdi, öz mübarizəsini davam etdirərdi...

Maraqlısı budur ki, adını çəkdiyimiz qurultayda da nəzərə çarpan bir cəhət vardısa, bu da ruh düşkünlüyünün olmaması idi. Yox, ruh düşkünlüyü yox idi.

Bunu hətta seyrək müşahidələrdən də sezmək mümkün idi...

Uğursuzluqlar müxalifət partiyalarında bir növ "profilaktika" işi apardı. Partiyalara, müxalifətə karyera üçün gələnlər elə ilk uğursuzluqlardan sonra onun sıralarını tərk etdilər, partiyada ən ideyalılar qaldı.

Təbii ki, bununla biz heç də partiya sıralarından müvəqqəti olaraq uzaqlaşmış və yaxud da əvvəlki dövrlərlə müqayisədə siyasi fəaliyyətini nisbətən azaltmış adamların hamısını qınamaq fikrində deyilik.

İnsanlar harada daha effektiv fəaliyyət göstərəcəklərini düşünürlərsə, ora da üz tuturlar.

Bəlkə bu detal da diqqətəlayiqdir ki, müxtəlif səbəblər üzündən son vaxtlar Müsavatdan uzaq düşmüş insanların demək olar ki, heç biri hakimiyyət partiyalarına qoşulmadı.

Gələk qurultayın üstünə. Bir detalı qeyd etməyə məcburuq ki, partiya öz tədbirini təəssübkeşlər üçün o qədər də maraqlı edə bilmədi. Bunu niyə görə deyirik?

Lap əvvəldən Arif Hacılının partiyaya başqan seçiləcəyi ehtimal edilirdi və bunu əsas gətirənlər irəlicədən qurultayın sıradan bir tədbir olacağını deyirdilər. Belə qənaətlərin yaranmasının əsas səbəbi o idi ki, İsa Qəmbər özü Arif Hacılının namizədliyini dəstəkləyirdi. Bu baxımdan "İsa Qəmbər necə istəyəcəksə elə də olacaq" -deyənlər müəyyən mənada haqlı çıxdılar...

Təbii ki, Arif Hacılı bugünün-dünənin adamı deyil, milli azadlıq hərəkatının ilk illərindən seçilən və sayılan liderlərdən biridir. Amma onun siyasi taktikası və strategiyası bəllidir.

Bu mənada, Müsavat Partiyasının fəaliyyətində yenilik kimi qiymətləndirilə biləcək ciddi dəyişiklik sözsüz ki, olmayacaq. Bunun ən əsas səbəbini bir qədər əvvəldə dedik. Amma heç də bütün məsələlər obyektiv səbəblərdən asılı olmur, tarix şəxsiyyətlərə də yer ayırır, onlara da kiçik də olsa, şans verir...

Güman edirik ki, iqtisadçı Qubad İbadoğlu başqan seçilsəydi daha maraqlı proseslər baş verə bilərdi. Məsələ bundadır ki, o, iqtisadçıdır və onun özünün iqtisadçılardan ibarət böyük dairəsi var.

Məsələ bundadır ki, Müsavat Partiyasına imic yaradan və onu cəmiyyət üçün daha maraqlı edən insanlardan biri də Qubad İbadoğlu olub. Bilirsiniz, elə iqtisadçılar var ki, hakimiyyət onların dediklərinə heç məhəl də qoymur. Amma elə həmin hakimiyyət Qubad İbadoğlunun bir tənqidini belə cavabsız qoymurdu...

Təbii ki, indi artıq səhifə çevrilib. Qurultay bitib, başqan da seçilib. Bundan sonra deyilənlər bir o qədər də aktual görünmür. Amma bu, nə birinci qurultay idi, nə də ki, sonuncu...

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014



# Şamaxılı general bakılı "vor zakon"la əlbir olub, Krımı necə taladı..?

## Vladislav Tsaturovla "Oleq Bakinski"ni birləşdirən yollar

**Rusiyanın Cəzaların İcrası üzrə Federal Xidmətinin (FSİN) rəis müavini, general-mayor Vladislav Tsaturov bakılı "vor zakon" və milyonçu, "Oleq Bakinski" ləqəbi ilə tanınan Oleq Krapivinlə korrupsiya əlaqəsinə girərək Krımın ilhaqından sonra ukraynalı biznesmenlərin orada qalan əmlakını dəyər-dəyməzə ələ keçirib.**

Virtualaz.org xəbər verir ki, Rusiya mətbuatında dərc olunan sensasion araşdırmada bu barədə bildirilir.

General Tsaturov özü də Azərbaycan əsillidir. 1960-cı ildə Şamaxı rayonunda anadan olub, daxili xidmət general-mayorudur və faktiki olaraq FSİN-i idarə edən əsas adamdır.

General barədə kompromatlar mətbuata FSİN-in Perm vilayəti üzrə idarəsinin rəis əvəzi Oleq Babenkonun moskvalı biznesmendən dələduzluq yolu ilə 300 min dollar almaq ittihamı ilə işdən azad edilməsi və barəsində cinayət işinin qaldırılmasından sonra mətbuata sızıb.

Polkovnik Babenko həbs cəzasını gözləyən biznesmenə Prikamsk həbsxanalarından birində məhbuslardan müdafiə və lüks şəraitdə "cəza çəkmə" vəd edib. Məlum olub ki, Rusiyanın həbsxanalar sistemində bu, adi haldır və general Tsaturovun qurduğu sistem sayəsində yaxşı pul verən hər kəs "srokunu" həbsxanada bəşulduzlu hotel şəraitinə malik olan kotteclərdə keçirə bilər.

Xəbərdə bildirilir ki, polkovnik Babenko general Tsaturovun bu sistemdəki əsas adamlarından olub.

**General Tsaturov FSİN-də "çevriliş" etmək istəyib**

Araşdırmada deyilir ki, 2014-cü il sentyabrın əvvəllərində FSİN-in rəhbəri Gennadi Korniyenko məzuniyyətə çıxıb. Şahidlərin bildirdiyinə görə, bundan dərhal sonra general Tsaturov yaxın ətrafına bildirib ki, şef məzuniyyətdən geri qayıtmayacaq. O, sentyabrın 30-da 60 yaşını qeyd edəcək və pensiyaya çıxacaq. Oktyabrda isə FSİN-in rəisi vəzifəsinə Tsaturovun adamı təyin olunacaq.

Məlumata görə, Tsaturov bu vəzifəyə öz adamını yerləşdirərək Rusiyanın penitensiar xidmətinin "boz kardinalı" kimi qalmaq istəyib. FSİN-in rəisi vəzifəsinə onun namizədi Krasnoyarsk üzrə penitensiar xidmətin rəisi Vladimir Şaeşnikov olub.

Lakin Federal Təhlükəsizlik Xidməti (FTX) Şaeşnikovun tabeçiliyindəki həbsxanalarda "vor zakon"lar və qatı cinayətkarlar üçün lüks şəraitli kotteclərin aşkara çıxarıb və cinayət işi qaldırıb *(bu haqda az sonra)*.

Şaeşnikovun karyerasının korlanmasından sonra Tsaturov bu vəzifəyə Perm vilayəti üzrə penitensiar xidmətin rəisi Aleksandr Sokolovun namizədliyini irəli sürüb. Deyilənlərə görə, Tsaturov əmin edirdi ki, Sokolovun namizədliyi "yuxarılarda" razılaşdırılıb və FSİN-in yeni direktoru məhz o olacaq.

Lakin generalın planları pozulub, FSİN direktoru Korniyenko gözlənilmədən məzuniyyətdən tez qayıdıb və öz postunu tərk etmək niyyətində olmadığını bildirib. Bunun ardınca FTX Tsaturovun adamını-polkovnik Babenkonu həbs edib və indi Sokolovun özünün bu qalmaqalla bağlı işdən qovulacağı gözlənilir. Eyni zamanda FTX general Tsaturovun Krasnoyarsk vilayəti üzrə penitensiar xidmətə başçılıq edən digər adamı - polkovnik Sokolov barəsində araşdırma başladıb.



**Şamaxılı general Krıma niyə tez-tez gedib gəlirdi...**

Rusiya mətbuatı yazır ki, Krımın ilhaqından sonra ukraynalı biznesmenlər və siyasətçilər yarımadadakı mülklərini, bizneslərini tələm-tələsik satmağa çalışırlar. Qorxurlar ki, onların əmlakı və biznesi milliləşdirilər.

Ukraynalılar bu sövdələşmələrdə birbaşa iştirak etməkdən çəkinirlər, lakin onların bu cür işlərdə köməyinə çatan biri var. O, əslən bakılı olan məşhur kriminal avtoritet, "Oleq Bakinski" kimi tanınan Oleq Krapivindir. Həmin Krapivin ki, general Tsaturovun çoxdankı tanışı və yaxın dostudur.

Məhz bu tanışlığın sayəsində FSİN-in bir çox vəzifəliləri, o cümlədən general Tsaturov özü Krımda çoxsaylı daşınmaz əmlakın, biznes aktivlərinin sahibi olublar. Lakin tale general Tsaturovu və "Oleq Bakinski"ni təkcə Krımda torpaq və biznes məsələsi ilə bağlı bir araya gətirməyib. Mətbuat yazır ki, general Moskvadakı "Prince Plasa" ticarət mərkəzinin VİP-bilyard salonunun daimi qonağıdır. Orada o, müntəzəm olaraq "Oleq Bakinski" ilə görüşür. Bu görüşlərdə tərəflər bu və ya digər "vor zakon"un yaxşı həbsxanaya salınması, həbsxana rəhbərliyinin onları ələ şəraitlə-telefonu, interneti, televizoru və s. olan ayrıca "domik"lərdə yerləşdirmək məsələsini razılaşdırıblar. Krapivinin hər belə səfərindən sonra qanqsterlər də 300-500 min dollarlarından keçməli olublar. Əvəzində onların lüks şəraitdə saxlanılması məsələsi yüksək səviyyədə həllini tapıb.

**"Oleq Bakinski" erməni nazirin yaxın dostudur**

Rusiya hüquq-mühafizə orqanlarının məlumat bazasında göstərilir ki, Oleq Krapivin kriminal avtoritetdir, "Oleq Bakinski" ləqəbi ilə tanınır. Ukraynada ticarət mərkəzlərinin və digər daşınmaz əmlakın sahibidir, "Forbes"in siyahısında 84 milyon dollarlıq sərvətlə 98-cidir.

O, eyni zamanda Kiyev azərbaycanlıları təşkilatının sədridir. Ukraynalı milyarderlər İqor Kolomoyski, Aleksandr Taruta, Vadim Novinski kimiləri onun yaxın tanışlarıdır. Ukraynanın indiki daxili işlər naziri, bakılı erməni Arsen Avakov isə "Oleq Bakinski"nin çox yaxın dostudur.

Ekspertlər deyirlər ki, general Tsaturov Krımda bir neçə aylıq ezamiyyətdə olub. Rəsmi məlumata əsasən o, Krımda penitensiar xidmət yaratmaqla məşğul idi, ancaq mənbələr deyirlər ki, Tsaturov əsas vaxtını ukraynalı biznesmenlərin və siyasətçilərin dəyər-dəyməzinə satdıqları daşınmaz əmlaka, biznesə sahib olmağa sərf edirdi.

"Maraqlı təsadüfdən" Tsaturovun Krımda ezamiyyətdə olduğu müddətdə ukraynalı biznesmenlər Sergey və Aleksandr Taruta, habelə onların biznes ortağı Oleq Mkrtçyan, digər ukraynalı tanınmış biznesmenlər Krımdakı obyektlərini satıblar.

Bu sövdələşmələr offşor şirkətlər üzərindən həyata keçirilib. İndi ekspertlər deyirlər ki, Tsaturov və FSİN-in digər vəzifəliləri Krımda özlərini evlərindəki kimi hiss edə bilərlər. Onların çoxsaylı villaları, hotelləri, restoranları var. Krımın daşınmaz əmlak bazarında FSİN "rəislərinin" maraqlı satış təklifləri yer alır.

**"Lexus"la iki adam öldürən Məmmədovun lüks türmə həyatı**

Məlumata görə, Kirov vilayətində də FTX həbsxanalarda yoxlama aparır. Bu yoxlamalar zamanı ağır cinayətlərə görə həbs olunmuş bir çox məhbusların heç də Krım kurortlarından pis olmayan şəraitdə dincəldiyi üzə çıxıb.

Məsələn, adam oğurluğu və reketə görə həbs olunmuş Azat Tadevosyan və Civan Lilayan, "Lexus"la iki piyadanı vurub öldürən azərbaycanlı biznesmen Əhməd Məmmədov belələrindəndir. Onların Kirov vilayətindəki 4 nömrəli həbsxanada hər şəraiti, o cümlədən spirtli içkilərlə dolu soyducusu olan "domik"lərdə dincəldiyi, sıra düzülüşünə qatılmadıqları, istənilən vaxt yatdıqları və oyandıqları məlum olub.

Bildirilir ki, Rusiyanın penitensiar xidmətində bu vəziyyət uzun illərdir hökm sürür. Lakin FTX onunla yalnız indi, FSİN-də "çevriliş" hazırlananda məşğul olmağa başlayıb.

# Misirdə Türkiyə seriallarının yayımı qadağan edildi

## Ərdoğanın BMT tribunasından əl-Sisini tənqid etməsi Misir və BƏƏ-nin etiraz bəyanatı, daha sonra isə Şimali Kiprlə bağlı sənədin qəbul olunmaması ilə nəticələnib



**Misirdə Türkiyə seriallarının yayımına qadağa qoyulub. Almaniyanın "Die Welt" qəzetinin yazdığına görə, Misirin informasiya naziri Əssam əl-Əmir Türkiyə seriallarının efirdən yığışdırılması ilə bağlı yerli telekanallara təlimat verib. Bundan başqa, nazirlik peyk üzərindən yayımlanan Misir telekanallarına məktub göndərərək türk seriallarını efirdən çıxarmalarını tələb edib.**

Bu hadisə Misir hökumətinin Ərdoğanın ötən həftə BMT Baş Məclisinin tribunasındakı çıxışına cavab hesab olunur. Qeyd edək ki, sentyabrın 24-də BMT Baş Məclisinin toplantısında çıxış edən Türkiyə prezidenti BMT TŞ-nin 5 daimi üzvünü sərt tənqid etmişdi. Bundan başqa, Ərdoğan BMT-ni Misirdə hərbi çevrilişə seyrçi qalmaqda günahlandırmışdı.

Türkiyə prezidenti bildirib ki, Misirdə xalq səsverməsi ilə seçilən prezidentin güc yolu ilə devrilməsinə etiraz edən xalq qətlə yetirilərkən BMT və dünya ölkələri bunu sadəcə seyr edib. Eyni zamanda Ərdoğan dünya ölkələrini hərbi çevriliş edənləri leqallaşdırmaqda ittiham edib. Gözlənildiyi kimi, Türkiyə prezidentinin Misir prezidenti Əbdülfəttah əl-Sisini sərt şəkildə tənqid etməsi iki ölkə arasında münasibətləri yenidən gərib. Ərdoğanın çıxışından az sonra Misir XİN bəyanatla çıxış edərək Türkiyə prezidentini tənqid edib. Bundan az sonra isə Birləşmiş Ərəb Əmirlikləri XİN oxşar məzmunlu bəyanat verərək Ərdoğanın hərəkətini pisləyib.

Ancaq məlum olub ki, ərəb ölkələri Türkiyənin bu hərəkətini unutmaq fikrində deyil. Belə ki, bu hadisədən bir neçə gün sonra İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin Nyu-Yorkda keçirilən toplantısında yekun bəyanata Türkiyə hökuməti Şimali Kipr Türk Respublikası ilə bağlı bənd əlavə etməyi təklif etsədə, Misir və BƏƏ-nin müdaxiləsi ilə təklif qəbul edilməyib. Adıçəkilən ölkələr yalnız Cənubi Kipri, yəni yunan dövlətini tanıdıqlarını və ŞKTC-ni isə yalnız Türkiyənin tanıdığını bəyan edərək yekun bəyannaməsinə Şimali Kiprin adının salınmasına imkan verməyiblər.

Bu hadisə Türkiyə-Misir münasibətlərinə və göründüyü kimi, digər ərəb ölkələri ilə olan diplomatik əlaqələrə zərbə vurub. Qeyd edək ki, son illərdə Türkiyənin ərəb ölkələri ilə münasibətləri xeyli inkişaf edib. Ancaq Misirdə baş verən hərbi çevrilişdən sonra Türkiyənin dəstəklədiyi "Müsəlman Qardaşlar" Hərəkatının hakimiyyətdən salınması Türkiyədə sərt etirazla qarşılanıb. Ankara Misir hərbi rəhbərliyinin hərəkətlərini pisləyib. Bundan sonra Ankara ilə Qahirə arasında diplomatik münasibətlərdə gərginlik yaranıb. Misir Qahirədəki səfirini geri çağırdı. Misir rəhbərliyinin yerli telekanallarda türk seriallarını qadağan etməsi rəsmi Qahirənin Ankaraya daha bir zərbəsi hesab oluna bilər. Çünki son 10 ildə Türkiyə serialları ərəb ölkələrində geniş yayılıb və böyük rəğbət toplayıb. Bu, həm də Türkiyənin mədəni təbliğatı, turist cəlb olunması və reklam gəlirlərinə böyük təsir edir.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014

# Məkkədən "Yeni Müsavat"a şikayət

**Azərbaycandan Həcc ziyarətinə gedən zəvvarların sonuncu qrupu Səudiyyə Ərəbistanındadır. Zəvvarlarımızın xeylisi neçə gündür Məkkədədir və ziyarət əməllərinin bir qismini yerinə yetiriblər.**



## Şeyxin adamları zəvvarları aldadıbmı?

Azərbaycandan Həccə gedənlər QMİ məmurları tərəfindən ziyarət qaydalarının pozulmasından, yeməyin keyfiyyətindən narazılıq edirlər, VİP paketlərdə olan bəzi zəvvarlar xidmətlərin yüksək olduğunu deyir; amma adambaşına 3 min manatdan artıq pul ödəyənlər ciddi problemlə üz-üzə qalıb - təfsilat

Qeyd edək ki, Həcc mövsümünün başlaması ilə əlaqədar dünyanın hər yerindən zəvvarlar müqəddəs Məkkə şəhərinə yola düşüblər. Azərbaycandan gedən ilk zəvvar qrupu isə sentyabrın 23-dən 28-dək Bakıdan Ciddəyə uçan təyyarələrlə ziyarətə aparılıb. QMİ-dən verilən məlumata görə, bu il müqavilə əsasında uçuşları təşkil edəcək ASAS (Advance Spesial Aviation Service) aviaşirkəti zəvvarlar üçün "biznes klass" salonlu təyyarələr ayırıb. Məkkədəki azərbaycanlı zəvvarlardan musavat.com-a verilən məlumata görə, zəvvarların böyük əksəriyyəti artıq hotellərə yerləşiblər. Ancaq hər il olduğu kimi, bu il də Həcc səfəri ilə bağlı müəyyən narazılıqlar var.

Bizə verilən bilgiyə görə, QMİ zəvvarları miqata aparmayıb. Zəvvarlara Bakı hava limanında niyyət etdirərək, Ciddədə ehram bağladıblar. Qeyd edək ki, həcc səfəri zamanı Məkkəyə çatan zəvvarların gəldikləri istiqamətdən asılı olaraq Məkkəyə çatmamış müəyyən məntəqələrdə həccin xüsusi geyimi olan ehram bağlaması qaydası var. Hazırda yalnız şiələr bu qaydaya riayət edərək Məkkənin qədimdən mövcud olan giriş məntəqələrinə gedərək ehram bağlayırlar. Ancaq keçən il olduğu kimi, bu il də QMİ mollaları zəvvarlara niyyət etdirərək Ciddədə ehram bağladıblar. Halbuki QMİ rəsmiləri arzu edənlərin miqata aparılacağını bildirmişdi.

Bundan başqa, zəvvarların bildirdiyinə görə, bu dəfə də Məkkəyə gələn zəvvarlar gündüz vaxtı, üstüqapalı avtobuslarda gətiriliblər. Halbuki kişilərin gündüz vaxtı Məkkəyə yalnız günəş altında, heç bir gündən qorunacaq vasitə olmadan gəlməsi şərtdir. Bu şərt pozulduqda isə kəffarə (cərimə) olaraq zəvvar qurban kəsməlidir. Ancaq QMİ nümayəndələri bu şərtləri bildikləri halda zəvvarları gündüz vaxtı avtobuslarla Məkkəyə gətiriblər. Bu isə dini hökmləri, həcc qaydalarını bilən zəvvarların etirazlarına səbəb olub.

Zəvvarların daha bir narazılığı yeməklərlə bağlıdır. Hər il olduğu kimi bu dəfə də zəvvarların qaldığı hotellərdə yemək xeyli dərəcədə keyfiyyətsiz olub. Bu isə ciddi narazılıqlar yaradıb. Hətta bizə çatan məlumata görə, son 3 gündə bir sıra hotellərdə zəvvarlar yeməyi hotelin bufetində deyil, şəhərdəki yeməkxanalara gedərək orda yeyirlər.

Qeyd edək ki, Azərbaycandan həcc səfərləri son illərdə yalnız təyyarə ilə həyata keçirilir. Suriya və İraqda təhlükəsizlik məsələləri ilə bağlı ciddi problemlərin olduğunu nəzərə alaraq Həcc ziyarətinin yeganə təşkilatçısı olan QMİ azərbaycanlı zəvvarların avtobusla səfərini ləğv edib. Bu səbəbdən səfərlər yalnız təyyarələrlə həyata keçirilir. QMİ Həcc ziyarətinə gedən zəvvarlar üçün iki qiymət təklif edir. Nisbətən şəraiti zəif və gündə iki dəfə yemək verilən hotellərdə qalan zəvvarlar üçün ümumi ziyarət xərci 3250 manat, daha yaxşı şəraitli və yeməkləri daha çeşidli olan hotellərdə qalmaq istəyən zəvvarlar üçün ümumi xərc 4100 manatdır.

Məkkədə olan zəvvarlarımızdan aldığımız məlumata görə, 4100 manatlıq paketləri alan zəvvarların qaldıqları hotellərin bəzilərində vəziyyət xeyli dərəcədə yaxşıdır. Ümumilikdə zəvvarlarımızın 9 hoteldə yerləşdirildiyini deyən azərbaycanlı hacılar VİP paketə daxil olan hotellərin bəzilərində yüksək səviyyəli şərait, keyfiyyətli yeməklər, səliqəli nömrələrin olduğunu, hər bir otaqda internet olduğunu bildirirlər. Kəbədən 4-5 kilometr məsafədə yerləşən hotellərdə qalan azərbaycanlıların bir qismi şəraitdən razı olsa da, bu, bütün hotellərə aid deyil, hətta VİP paket alan zəvvarların bir çoxu keyfiyyətsiz yemək və xidmətlərdən şikayətçidir.

Əlbəttə, dini baxımdan zəvvaların Məkkədə yüksək səviyyəli hotellərdə qalmasında hansısa qadağa yoxdur. Ümumiyyətlə, bəzən iddia edildiyi kimi, Həcc səfəri zamanı ziyarətin daha ağır şəraitdə keçməsi kimi bir tələb də yoxdur. Ancaq bu daha az ödəmək imkanında olan insanların haqlarının tapdanmasına səbəb olmamalıdır. Nəzərə alsaq ki, 3250 manat 4 min dollardan artıq pul edir və mütəxəssislərin hesablamalarına görə, Həcc ziyarəti üçün normal ödəmə hesab olunur. O zaman bu məbləği ödəyən insanların şəraitinin yaxşı olmasını tələb etmək haqları var. Bu məbləği ödəyən insanların keyfiyyətsiz yeməklərlə təmin olunması, hotel şəraitlərinin aşağı səviyyədə olması açıq-aşkar ayrı-seçkilikdir. Çünki əvvəla, 3250 manat özü də az pul deyil və bu pula normal hotellər və xidmət kirayə etmək olar. İkincisi isə hətta məbləğin azlığı belə müqəddəs ziyarətə gedən insanların qida və xidmət çətinliyi yaşamasına əsas verə bilməz. Bu mənada narazılıqları aradan qaldırmaq QMİ-nin üzərindədir.

Xatırladaq ki, Azərbaycandan Həcc səfərinə gedən zəvvarlar Qurban bayramından 5 gün sonra geri dönməyə başlayacaq. Bu isə təxminən oktyabrın 10-na təsadüf edir. Həcc ziyarətinin əsas atributu olan Qurban bayramı bu il oktyabrın 4-5-də qeyd olunacaq.

❑ HÜSEYN

# Bakı və Ankara üçün "X günü" tənliyi

## Qərb Ermənistana "xilas kəməri" hazırlayır

İran vasitəsilə işğalçı ölkəyə yeni böyük "nəfəsliy"in açılması gerçəkləşə bilər; Tehranın Avropa üçün artan energetik önəmi təcavüzkarın mövqeyini gücləndirir...

**Güney Qafqaz regionunun yaxınlığında geosiyasi proseslər o qədər sürətli gedir ki, az qala dünənki dostlar rəqiblərə, rəqiblər isə qısa zamanda tərəfdaşlara və ya müttəfiqlərə çevrilməkdədir. Hətta eyni hərbi-siyasi bloklarda təmsil olunan və dost sayılan ölkələr görürsən ki, bir-birilərinin maraqları əleyhinə işləyir. İkicə faktı xatırladıb mətləbə keçək.**




Biri NATO üzvü olan dövlətlərin - ABŞ və Almaniyanın NATO üzvü olan digər dövlətləri (Almaniya və Türkiyə) gizli izləməsidir. İkinci nümunə isə yenə də NATO üzvü olan Yunanıstanın alyansın digər mühüm üzvü Türkiyəyə qarşı qəbul elədiyi uydurma soyqırımı inkara görə cəza nəzərdə tutan qanunu qəbul etməsidir. Hər iki olay son ay ərzində baş verib (İki il öncə analoji addımı blokun başqa bir üzvü Fransa atmağa cəhd eləmişdi). Demək, belə çıxır, NATO da göründüyü qədər monolit deyilmiş.

Məsələ də ondadır ki, alyansların, blokların öz gerçək mahiyyətini itirməkdə olduğu, dost-düşmənlərin təzədən dəqiqləşdirildiyi mürəkkəb bir mərhələyə girməkdəyik. Bu mərhələni uğurla keçmək üçün çox vacibdir ki, Azərbaycanla Türkiyə qoşa və sinxron hərəkət eləsin.

İlk növbədə də düşmən Ermənistanın, şimal və cənub qonşumuzun xarici siyasətini diqqətlə izləmək gərəkir. Əlxüsus cənub qonşumuzla bağlı cərəyan edən proseslər bəzi narahatedici suallar doğurur - Rusiyanın bölgəyə yönəlik siyasətində, hər halda, az da olsa, müəyyənlik var.

İş ondadır ki, ötən yazılarda da vurğulandığı kimi, Tehranla Qərb arasında buzlara yavaş-yavaş əriyir. Bu prosesin sürətlənəcəyi gözlənilir, çünki hər iki tərəf bir neçə səbəbdən bunda maraqlıdır. İndi heç 5-6 ay əvvəlki situasiya da deyil və rəsmi Tehran da, Vaşinqton və Brüssel da bunu ciddiyə alırlar. Qeyd edildi artıq qlobal siyasətdə əbədi düşmənlər olmur, əbədi maraqlar olur.

Söhbət öncəliklə İranın Avropa qaz bazarına qaytarıb Rusiyadan 30 faizlik qaz asılılığından qurtulmaq planlarından gedir. Proqnoza görə, əgər müvafiq infrastruktur inşa edilsə, Tehran 2020-ci ilin əvvəlinə Avropaya ildə 10-20 milyard kub metr qaz göndərə bilər.

Artıq həm Tehrandan, həm də Vaşinqton və Brüsseldən bu istiqamətdə qarşılıqlı və xoşməramlı mesajlar səslənib. Qalır Qərblə İran arasında ikincinin nüvə proqramı ilə bağlı yekun anlaşma.

İŞİD-lə ortaq mübarizə zərurəti bu yaxınlaşmanı tezləşdirə bilərdi. Onsuz da Tehrana qarşı sanksiyalar xeyli yumşaldılıb, onun Qərb banklarında dondurulmuş çoxmilyardlı vəsaiti qaytarılıb, diplomatik münasibətlərin bərpası yönündə ciddi addımlar atılıb. İkitərəfli istəyin güclü olması prosesin ən azından yerində saymayacağı ehtimalını gücləndirir.

Xəbər verildiyi kimi, Avropa Birliyi uzunmüddətli strategiya çərçivəsində İrandan təbii qazın idxalı variantını nəzərdən keçirməyə başlayıb. Bildirilir ki, müvafiq qərar Rusiya ilə münasibətlərin soyuqlaşması, həmçinin Qərbin tədricən Tehranla yaxınlaşması səbəbindən qəbul edilə bilər. Belə əməkdaşlıq üçün isə iki şərtin təmin edilməsinin vacibliyi vurğulanır: mübahisəli nüvə proqramına görə tətbiq olunan sanksiyaların götürülməsi və qaz boru xətti infrastrukturun yaradılması.

Azərbaycan və Türkiyənin maraqları üçün yeni təhlükə də elə burada "gizlənib". Çünki İran Ermənistanın mühüm siyasi-iqtisadi tərəfdaşıdır. Və ehtimal böyükdür ki, qaz xətti ən əlverişli, qısa marşrut kimi Ermənistandan keçsin. Güclü erməni lobbisinin Qərb dövlətlərinə təsir imkanları da nəzərə alınsa, məsələnin ciddiliyi çılpaqlığı ilə ortaya çıxacaq. Unutmayaq ki, Qərb çoxdandır Moskva-İrəvan-Tehran geosiyasi oxunu dağıtmağa və İrəvanın Moskvadan asılılığını azaltmağa çalışır. İrandan böyük qaz nəqli layihəsi iki hədəfə birdən çatmağa imkan verir.

O halda, bu, Ermənistan üçün "xilas günü" ola bilər. Çünki təcavüzkar o zaman yüzdə-yüz blokadadan çıxaraq belini dikəldəcək, cırtdan ölkə milyardlara sahiblənib öz iqtisadiyyatını dirçəldəcək, Qarabağ və "soyqırım" məsələlərində dili daha uzun olacaq. Təsadüfi deyil ki, artıq Ermənistanda gələcək meqalayihədən dolayı sevinc hisslərini gizlətmirlər.

Odur ki, Bakı və Ankara təcavüzkarı "xilas planı"nı pozmaq, İrandan Qərbin rüsxəti ilə "böyük nəfəsliy"in açılmasını əngəlləmək üçün indidən siyasi-diplomatik, ekspert səviyyələrində kontur-planlar qurmaq haqda düşünməlidir.

❑ Siyasət şöbəsi



## Əlillər nazirlik qarşısında aksiya keçirdi

**Səhər saatlarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında aksiya keçirilib. ANS TV-nin məlumatına görə, toplaşan əlillərin etirazına səbəb hazırda yaşadıqları nazirliyin nəzdində olan Müalicə Pansionatından köçürülmək istəmələridir.**

Onlar gedəcəkləri ünvandan narazılıq edir. Çünki göndəriləcəkləri yerin ruhi xəstələr üçün nəzərdə tutulduğunu deyirlər.

Fevral ayında Bilgəh Qocalar evi və Ramanada yerləşən Əlillər evində islahatlar aparılmışdı. Nəticədə yaş həddi qadınlar üçün 60, kişilər üçün 63-dən aşağı olan şəxslər aşkar olunaraq, məskunlaşdıqları müəssisədən çıxarılmış, müvəqqəti olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Pansionatına yerləşdirilmişdilər.

Pansionatın binası isə artıq istifadəyə yararsız vəziyyətə düşüb. Bu səbəbdən pansionat sakinlərinində köçürülməsi gündəmə gəlib. Əlillərin sözlərinə görə, onları Gəncə, Şamaxı və Buzovnada yerləşən müəssisələrə köçürəcəklər.

Dövlət Sosial Təminat Xidmətinin sektor müdiri Vüqar Behbudov məsələyə aydınlıq gətirərək bildirdi ki, Gəncədə yerləşən müəssisə heç də ruhi xəstələr üçün nəzərdə tutulmayıb. Müəssisə Sosial Xidmət Mərkəzdir və təqaüdçü şəxslər üçün nəzərdə tutulub.

Lakin fiziki qüsurlu şikayətçilər bu cavabla razılaşmadılar və gözləməyə qərar verdilər. Nəhayət, nazirlik iki nəfəri qəbul etdi və məsələni aydınlaşdırdı.

Şikayətçi Kəmalə Babazadə onları Gəncə və Şamaxıya göndərəcəklərini dedi. O bildirdi ki, könüllü olaraq kim istəsə Buzovnanı da seçə bilər.

Hər halda, pansionat sakinləri narazılıqlarına baxmayaraq deyilən ünvanlarda yerləşdiriləcək. İndi onlara gedəcəkləri yerə tezliklə uyğunlaşmaq qalır.



## Avtomobillərin texniki baxışına görə rüsum dəyişə bilər

**Hesablama Palatası avtomobillərin illik texniki baxışdan keçirilməsinə görə tutulan dövlət rüsumu ilə bağlı Nazirlər Kabinetinə təklif təqdim edib.**

APA-nın məlumatına görə, Hesablama Palatasının Nazirlər Kabinetinə müraciətində qeyd edilib ki, dövlət büdcəsinə dövlət rüsumlarından daxilolmaların tərkibində böyük xüsusi çəkiyə malik olan, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən nəqliyyat vasitələrinin illik texniki baxışdan keçirilməsinə görə tutulan dövlət rüsumunun məbləği Nazirlər Kabinetinin 06 oktyabr 2004-cü il tarixli 149 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının vahid büdcə təsnifatında büdcə gəlirlərinin 142216 nömrəli təsnifat kodunda rüsumlardan daxilolmaların tərkibində böyük xüsusi çəkiyə malik olan digər dövlət rüsumu - Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsinə görə tutulan dövlət rüsumu ilə birlikdə göstərilir.

Bu isə ayrı-ayrılıqda xüsusi çəkisi əhəmiyyətli səviyyədə olan göstərilən mənbələrdən büdcə daxilolmalarının proqnozlaşdırılması və icrası barədə müvafiq rəylərin əsaslılığına təsir göstərir. Hesablama Palatası müvafiq olaraq vahid büdcə təsnifatında büdcə gəlirlərinin qeyd olunan təsnifat kodu üzrə daxilolmaların diferensiallaşdırılması və Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən nəqliyyat vasitələrinin illik texniki baxışdan keçirilməsinə görə tutulan və dövlət büdcəsinə ödənilən dövlət rüsumlarının məbləğinin Azərbaycan Respublikasının vahid büdcə təsnifatında ayrı təsnifat kodu ilə göstərilməsini məqsədəuyğun hesab edib.

## Yeni smartfonların qiyməti digər ölkələrlə müqayisədə əl yandırır

**Pərviz Quliyev:** "Onların ən ucuzu iPhone6 16 GB-lıq 1099 manatdan 999 manata düşüb"

**Apple-in son istehsalı olan iPhone 6 modelini artıq Azərbaycan telefon dükanlarında da tapmaq mümkündür. Yeni model telefon, İPhone 6 nazikliyi ilə diqqəti cəlb edir. Apple şirkətinin rəsmisi Phil Schiller bildirib ki, iphone 5 və 5S-lə müqayisədə iPhone 6 "daha xəfif və incə"dir.**










Onun ekran diaqonalı 4,7 İPhone 6 Plus-un isə 5,5-dir. iPhone 6-nın qalınlığı 6-6, 8, iPhone Plus-da 7,1 millimetrdir. Yeni displeylərin küncləri daha geniş, rəngləri isə daha dəqiqdir. Korpuslar şüşə və alüminiumdandır. Yeni telefonlar həm də daha yaxşı enerji saxlamaq qabiliyyətinə malikdir. Bu telefonla 50 saat səs yazmaq, 11 saat isə videoya baxmaq mümkündür. Apple korporasiyası sentyabr ayına qədər 12 milyon iPhone 6 satmağı planlaşdırır. İlin sonuna qədər isə yeni model 100 ölkədə satışa çıxarılacaq.

Bu yeni smartfonun Azərbaycandakı qiymətini və alıcılarının olub olmadığını öyrənmək üçün paytaxtda fəaliyyət göstərən bir neçə telefon mağazasına baş çəkdik. Kiçik telefon mağazalarında bu telefonlara rast gəlməsək də, "İrşad Telecom" və "World Telecom" kimi mağazalar şəbəkəsində bu cür telefonlar satılır. Qiymətlərə gəlincə, ilk dəfə gətirilən günə nisbətən xeyli aşağı düşməsinə baxmayaraq, yenə də bu smartfonların qiyməti əl yandırır. Qiymətlər onların rənginə və yaddaşlarına görə dəyişilirdi və demək olar ki, baş çəkdiyimiz bütün mağazalarda eyni idi. Belə ki, iPhone 6 16GB 999 manat, iPhone 6 64GB 1099 manat, Apple iPhone 6 128GB 1199 manat, Apple iPhone 6 Plus 16GB 1299 manat, iPhone 6 Plus 64GB 1399 manata satılırdı. **Satıcı Pərviz Quliyev** bu qiymətlərin endirimlə olduğunu bildirdi: "Təzə gələndə qiymətlər bundan baha idi. Məsələn, iPhone 6 Plus 16GB 1399 manatdan 1299 manata düşüb. iPhone 6-ların ən ucuzu sayılan iPhone 6 16 GB-lıq isə 1099 manatdan 999 manata düşüb».

**Satıcı bir müddətdən sonra qiymətlərin daha da düşəcəyini bildirdi". P.Quliyevdən bu telefonların alıcılarının olub-olmadığını soruşduqda o, alıcıların kifayət qədər olduğunu dedi:** "Biz hələ bu telefonları gətirməmişdən gəlib maraqlananlar, sifariş verənlər vardı. Maraq böyükdür. Ancaq əksəriyyət qiymətlərin bir az da düşməsini gözləyir. Bütün telefonlar yeni çıxanda baha olur. Sonra tədricən qiyməti enir".

**Digər baş çəkdiyimiz mağazada isə iPhonun digər modellərinə rast gəlsək də, yeni istifadəyə verilmiş iPhone-lara rast gəlmədik. Bunun səbəbini satıcı bu telefonların alıcılarının hələ kifayət qədər olmadığı ilə izah etdi:** "Bu telefonlar çox bahadır. Ona görə də baha qiymətə gətizdirib vitrində ölməsini istəmirik. Çünki bilirik ki, alıcıları olmayacaq. Olsa da 2-3 nəfər varlı balası alacaq. Vitrində qalacaq, sonra qiyməti ucuzlaşacaq. Bu da bizə sərf etmir. Ona görə də tam ucuzlaşandan sonra gətirəcəyik".

iPhone 6 və İPhone 6 Plus-un qiymətini digər dövlətlərlə müqayisə etdikdə Azərbaycanda həddən artıq baha olduğunu müşahidə etmiş olarıq. Fins.az-ın araşdırmaları göstərib ki, yeni iPhone 6-nın qiymətləri Bakıda o dərəcədə şişirdilib ki, bu smartfonları Bakıda almaqdansa, okeanın o tayına səfər edərək ABŞ-ın özündən alıb gətirmək daha sərfəlidir. Hətta təyyarə biletinə çəkilən xərcləri nəzərə aldıqda da ABŞ-dan alınan iPhone 6 daha ucuz başa gəlir. Belə ki, ABŞ-da iPhone 6-nın qiyməti 649 dollar (510 manat), iPhone 6 Plusun qiyməti isə 749 dollar (590 manat) təşkil edir. ABŞ-a səyahətə gəlincə, AZAL Hava Yollarının bir qədər əvvəl təqdim etdiyi sərfəli kampaniya çərçivəsində Bakıdan Nyu-Yorka birbaşa gediş-gəliş bileti 599 avroya (təqribən 600 manat) başa gəlir. Nyu-Yorkda 3 günlük yaşayış (təyyarə reysləri arasındakı müddət) xərcləri təqribən 500 dollara (390 manat) başa gəlir. ABŞ-a getmək üçün viza alınması 160 dollara (125 manat) başa gəlir. Bir sözlə, iPhone 6 telefonu almaq üçün ABŞ-a uçmaq daha sərfəlidir.

Türkiyədə isə iPhone6 837 manatdan başlayan qiymətlə, 5,5 düym ekrana sahib olan iPhone 6 Plus isə 944 manatdan başlayan qiymətlə satışa çıxarılıb. 7 düymlük ekrana malik iPhone 6 (16 GB daxili yaddaşlı) Avropa ölkələrində 750 avroya, 5,5 düym ekranlı iPhone 6 isə 950 avroya satılır. Şərqi Avropa ölkələrində isə 4,7 düym ekranlı iPhone 6 smartfonu 780 avroya, 5,5 düym ekranlı iPhone 6 isə 980 avroya satılır. Rusiyada yeni iPhone 6 telefonlarının qiyməti 32 min rus rublu, yəni 900 ABŞ dollarıdır.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Aşıq Zülfiyyə oğluna toy edir

"Gəlin-qayınana problemi yaşamayacağıq"

**"Bu həyatda ən böyük arzularımdan biri reallaşır. Oğlum Babək evlənir. Artıq qız toyu olub. Oğlan toyu isə oktyabrın 2-si Bakıdakı şadlıq saraylarının birində baş tutacaq".**



Bunu müsavat.com-a Aşıq Zülfiyyə oğlunun toyu ərəfəsində deyib. Özünü dünyanın ən xoşbəxt analarından hesab etdiyini söyləyən sənətçi daha sonra bunları dedi:

"Ən böyük arzularımdan biri və birincisi oğlumu evləndirmək idi. Şükür, həmin günü də Allahın izni ilə görəcəyik. Qız həm mənim, həm yoldaşımın, həm də oğlumun ürəyindəndir. Buna görə çox sevincliyik".

Oğlu evləndikdən sonra bir evdə yaşayacaqlarını bildirən müsahibimiz qayınana-gəlin problemi yaşamayacaqlarına inanır:

"Bir evdə yaşayacağıq, çünki bizim başqa övladımız yoxdur. Həm qız özü, həm də Babək bizimlə yaşamaq istəyir. Mənə belə gəlir ki, bizdə ana-bala münasibəti olacaq. Onu gəlin kimi düşünə bilmirəm. Çünki Babəkdən seçmirəm. Elə bilirəm qızım dünyaya gəlib".

**Babəklə nişanlısının tanışlığından danışan sənətçi gəlini özünün seçdiyini bildirdi:**

"Qız dayımın nəvəsidir. Toylara gedəndə bacılarım demişdi ki, filankəsin qızına bax, böyüyüb, gör nə qəşəng olub. Mən də o vaxt, qız uşaq olanda fikir verməmişdim. Sonra gördüm həqiqətən böyüyüb, necə gözəlləşib. Biz də Babəkə məsləhət gördük ki, qızla bir görüş, danış, gör bəyənəcəksənmi. Qızla görüşəndən sonra elə sevdi ki, biz yalan olduq, bu doğru". *(Deyərək, gülür.)*

**Toy hazırlıqlarının artıq yekunlaşdığını bildirən Aşıq Zülfiyyə məclislərinə cəmi 350-400 nəfər dəvət etdiklərini bildirdi:**

"Hələ biz nəzərimizdə 250 qonaq tutmuşduq. Ən yaxınları. Amma nə qədər sıxsaq da yenə olmadı. Min nəfər də çağıra bilərdim, amma istəmirik. Bu illər ərzində elə məclislər görmüşük ki... Elə olub oturmağa yer tapılmayıb, nəmər salıb çıxmışıq. Elə şeylər xoşuma gəlmir. Çünki elə olanda bilmirsən qonağın razı getdimi, necə qulluq olundu. Həm də dayım qızlarına, xalam qızlarına dəvət göndərmədik. Eləcə də yoldaşımın qohumlarının çoxuna. Çünki bir tərəfdən onlara əziyyət də vermək istəmədik, durub rayondan bura gəlməli idilər".

**Şou-biznes nümayəndələrindən də toya dəvət etdiklərini bildirən Zülfiyyə xanım bunları dedi:**

"Kiminlə ki azından telefonda səmimi danışığım var, onları dəvət etmişəm. Çox adamı çağırmamışam. Dəvət etdiklərimdən də kim gəlməsə inciməyə haqqım yoxdur. Çünki ola bilsin həmin günə özlərinin toyu var. Öz başıma gələn hadisədir. Elə olub gedə bilməyib, kimisə göndərmişəm. Məni tanıyan adamlar da bilir ki, şou-biznesdə ədavətim olan, davalı olduğum adam yoxdur".

❑ **Fəridə ABDIYEVA**

YENİ MÜSAVAT
N 243 (5952) 30 sentyabr 2014

**Rusiya Liberal-Demokrat Partiyasının sədri, Dövlət Dumasının üzvü Vladimir Jirinovski sentyabrın 25-də Milli Məclis sədrinin dəvəti ilə Azərbaycana gəlmişdi. Qalmaqallı çıxışları ilə tanınan rusiyalı siyasətçi əvvəllər dəfələrlə Azərbaycan xalqını təhqir edib, ermənipərəst mövqe sərgiləyib. Ancaq o, Azərbaycan səfərindən sonra Rusiyaya qayıdaraq Azərbaycan haqqında müsbət fikirlər söyləyib. Buna baxmayaraq, onun Azərbaycana gəlişi və yüksək səviyyədə qarşılanması cəmiyyət tərəfindən heç də birmənalı qarşılanmayıb. Bu dəvətə görə hakimiyyəti qınayanlar da oldu, bunu düzgün addım hesab edənlər də.**

# Jirinovskinin Azərbaycana gəlişi birmənalı qarşılanmayıb

## Müxalifətçilər bunu tənqid, iqtidar təmsilçiləri isə təqdir edir



**Müsavat Partiyasının başqan müavini Gülağa Aslanlı Jirinovskinin Azərbaycana gəlişini çox pis qarşıladığını bildirdi:** "Hakimiyyət Jirinovskini Azərbaycana dəvət edirsə və onun gəlişinə şərait yaradırsa, onun təbliğatından istifadə eləmək fikrindədirsə, onda xalq arasında işlədilən bir misal yerinə düşər: "Elçisi Gülüm olanın, başına külüm olar". Yəni ki, əgər hakimiyyət bundan sonra özlərinə müdafiəçi olaraq Jirinovskini seçiblərsə, gör indi bunlar nə gündədirlər. Əgər müxalifət bu addımı atsaydı, hakimiyyət indi onu yıxıb sürüyərdi. Amma nə yaxşı ki, müxalifət hakimiyyət ağılda deyil, onların təfəkkürünə sahib deyil. Ona görə də müxalifət heç vaxt belə addım atmazdı".

**ADP sədri Sərdar Cəlaloğlu Jirinovskinin Azərbaycana dəvətini ciddi yanlışlıq və qüsur hesab etdiyini dedi:** "Jirinovski dəfələrlə Azərbaycan xalqını qoyun adlandırıb. Həmçinin Azərbaycanın işğal edilməsinə çağırış edib, hətta son çıxışlarının birində Azərbaycan adlı bir xalqın olmadığını öz ağlına görə "sübut" edirdi. İş o yerə çatmışdı ki, Azərbaycan xalqını təhqir etdiyinə görə Abbas Abbasov onu məhkəməyə vermişdi. Bu adam ermənipərəst, Azərbaycan xalqına düşmən olması ilə açığa çıxmış bir adamdır. Belə bir adamın Azərbaycana dəvət edilməsi Jirinovskinin bütün təhqirlərinin qəbul edilməsi deməkdir. Azərbaycan hökuməti Dağlıq Qarabağa Azərbaycanın razılığı olmadan gedən avropalıların Azərbaycana gəlməsini qadağan edib. Amma Jirinovskini yüksək səviyyədə qəbul edirlər. "Jirinovskini öz tərəfimizə çəkmək istəyirik" kimi deyilənlər hamısı gülüncdür. Birincisi, Jirinovski öz sözünü yox, Putinin sözünü deyir. Çox güman ki, Jirinovskinin dəvəti Avropa Birliyinin və Amerika prezidentinin Azərbaycanla bağlı verdikləri bəyanatdan sonra atılan bir addımdır. Yəqin ki, demək istəyirlər ki, bizim Rusiya kimi bir dostumuz var. Amma bu, yanlış və utancverici bir məsələdir. Bir xalqı bu dərəcədə təhqir edən, alçaldan, bir dövlətin müstəqilliyini və suverenliyini təhdid edən bir insanı çağırıb, böyük şəxsiyyət kimi qəbul edirlər. Bu, dövlətçilik ənənələrinə sığmayan bir hərəkət idi".

**Politoloq Hikmət Hacızadə də bu dəvətin yanlış olduğu düşüncəsindədir:** "Jirinovskinin Azərbaycana gəlişi yol verilməz idi. Bu aksiya xeyirdən çox etirazlar yığacaq. Axı Jirinovski kimdir ki, onun hər hansısa bir çıxışı ictimaiyyətə təsir etsin?!"

**Deputat Zahid Oruc isə əksinə, Jirinovskinin Bakıya dəvət edilməsinin düzgün addım olduğunu hesab edir:** "Jirinovskiyə təkcə Azərbaycanda deyil, dünyanın daha geniş ictimai fikir sahiblərindən birmənalı münasibət yoxdur. Bunun da səbəbləri bəllidir. Vətəndaş fikrində Jirinovskiyə ölkəmiz, millətimiz əleyhinə söylədiyi təhqirlərə görə bu cür reaksiyaların olması təqdirəlayiqdir və başadüşüləndir. Ancaq ümumən dünya siyasəti qurularkən dövlətlərin, elitaların, parlamentlərin vəzifəsi fotoilüsturasiya münasibəti deyildi. Yəni biz sadəcə gerçəkliyi əks etdirmək yönündə addım atmalı deyilik. Siyasətin vəzifəsi tərəddüd edənləri dosta çevirmək, dostları strateji müttəfiq etmək, düşmənləri isə neytrallaşdırmaqdır. İndiki planda Jirinovski hansı nöqtədə dayanıb, bunu təyin etmək istəmirik. Ancaq biz nəzərə almalıyıq ki, Rusiya siyasətində onun qədər cəmiyyət rəyinə təsir edən insanlar çox deyil. Dumada 40-a qədər parlamentari məhz onun partiyadaşlarıdır. Bu mənada onu bütövlükdə anti-Azərbaycan və antitürk dünyasının ruporu kimi saxlamaq o qədər də əlverişli deyil. Azərbaycan cəmiyyətinin, partiyalarının tuta biləcəyi qərar ondan ibarət olmalıdır ki, əgər biz haqlı olduğumuzu söyləyir, mövqeyimizin əsaslı olduğunu vurğulayırıqsa, Jirinovski kimi insanları ölkəyə dəvət etməliyik. Onları gerçəkliklərlə silahlandırmalıyıq. Jirinovskinin Azərbaycana gəlməsi bizdən daha çox ermənilərə zərbə vurdu. Biz gözləyirdik ki, o, Qərb əleyhinə yenə də bəyanatlarını söyləyəcək, Azərbaycanda siyasi temperaturu bir az qaldıracaq. Ancaq əksinə, o, Azərbaycan haqqında çox yüksək fikirlər söylədi. Deməli, bundan öncə olanları təkzib etdi. Hesab etmirəm ki, Jirinovskinin səfəri bizə milli mənəvi cəhətdən hansısa bir aşağılıq yaratdı və ya zərbə vurdu. Şəxsən mən 10 il bundan öncə də Jirinovskinin Azərbaycana dəvətini təklif edənlərdən birincisi idim".

**Deputat Fəzail Ağamalı bildirdi ki, Jirinovski kimi şəxslərin Azərbaycanın yanında olması üçün çalışmalıyıq:** "O, vaxtilə Azərbaycana və bütün türk dünyasına qarşı ən müxtəlif xarakterli xoşagəlməz ifadələr işlədib. Bu gün isə Jirinovski Azərbaycanın yanında olmaq istəyir. Biz ya köhnə fikirləri əlimizdə bayraq edib Jirinovskiyə, onun partiyasına qarşı aqressiv münasibət göstərərək onu özümüzə qarşı barışmaz düşmənə çevirməli idik, yaxud da keçmişi yadımızda saxlamaqla, lakin onu üzə vurmamaq şərti ilə Jirinovskinin Azərbaycana gəlişinə normal münasibət bəsləyərək onun Azərbaycanın yanında olmasına çalışmalıyıq. Jirinovski Rusiyanın siyasi mühitində kifayət qədər aktiv və ictimai rəyi formalaşdıran fiqurlardan biridir. Jirinovskinin Azərbaycana gəlişinə müsbət yanaşıram. Onun Şəhidlər Xiyabanını, ulu öndəri ziyarət etməsi Azərbaycana qarşı müsbət münasibətin ifadəsi kimi qiymətləndirilməlidir. Bu adam artıq əlini Azərbaycana doğru uzadıb ki, mən sizin yanınızda olmaq istəyirəm. Biz indi onun əlini vurub geri qaytarmalıyıqmı? Yox, bu çox böyük səhv olardı. Jirinovskinin qayıdaraq Azərbaycanın ünvanına söylədiyi xoş sözlər, hətta bazara gedərək azərbaycanlıların əhatəsində fikir söyləməsi və bunun Rusiyanın populyar telekanalları vasitəsilə yayılmasının özü Azərbaycana qarşı müsbət jestdir. Biz çalışmalıyıq ki, Jirinovski kimi şəxslər həmişə Azərbaycanın yanında olsun".

❑ **Günel MANAFLI**

# Rusiyanın "qaz şantajı"nın sonu yaxınlaşır



**Azər RƏŞİDOĞLU**

**Avropa Birliyi və Rusiya arasında savaşın növbəti mərhələsi başlamaq üzrədir. Qış yaxınlaşır və Moskva yenidən dünyanı "qaz şantajı" ilə hədələyir. İqtisadi savaşda Qərbə uduzan Moskvanın yeganə üstünlüyü qaz amili ilə bağlıdır. Hazırkı status kvoda Rusiya Avropanı "qaz şantajı"nda saxlaya bilir. Bu, Kremlin əsas "kozır"ıdır. Lakin Rusiyanı iqtisadi tənəzzüldən "qaz şantajı" ilə xilas etmək mümkün deyil.**

Şərtlər Moskvanın əleyhinə işləyir. Odur ki, əksər araşdırmaçılar əmindirlər ki, Rusiya onu gözləyən iqtisadi tənəzzüldən xilas ola bilməyəcək. Bunun əsas səbəbi yanlış iqtisadi siyasətdir. Rusiyada iqtisadi böhran yaxın zamanlarda kulminasiya nöqtəsinə çata bilər. Rusiyalı iqtisadiyyatçılar özləri də iqtisadi fiaskonun uzaqda olmadığını bəyan edirlər.

Kremlin "qaz şantajı"nın bitməsinə də çox qalmayıb. Növbəti ildən başlayaraq, ABŞ-dan Avropaya sıxılmış qaz ixrac ediləcək. Avropanın Rusiyadan qaz asılılığı azaldıqca, Moskvaya axan maliyyənin miqdarı da azalacaq. Kreml üçün ən böyük problem həmin vaxt başlayacaq.

Onu da unutmaq olmaz ki, Rusiya iqtisadiyyatı Avropa ölkələrindən kredit kimi alınan maliyyədən asılıdır. Kreml Avropadan pul dilənir. Rusiyanın əksər kommersiya şirkətləri Avropa banklarından aşağı faizlə borc alır.

Son vaxtlar isə artıq Rusiya banklarına kredit verilməsinin də qarşısı alınıb. Bu isə Rusiyanın biznes qurumlarının məhvi anlamına gəlir. Moskva üçün ən acınacaqlısı isə odur ki, Qərb Rusiya iqtisadiyyatında yatırmalı olduğu, dəyəri milyardlarla dollarla ölçülən layihələrdən imtina etdi. Əgər Kreml Avropanı bu qış da "qaz şantajı" ilə hədələsə, qarşı tərəf buna sanksiyalarla cavab verməli olacaq. Bu isə Moskvanın Avropa Birliyindən asılılığının artması deməkdir.

Vəziyyətin dramatikliyini Kreml də anlayır. Ekspertlərə görə, Rusiyanı Çin bazarına çıxış xilas edə bilər. Lakin Çinlə bazarlığa getmək üçün Kreml 10 milyardlarla dollar xərcləməlidir. Belə vəsaitə isə Moskva malik deyil.

Odur ki, Avropanı "qaz şantajı" ilə hədələyən Rusiya anlamalıdır ki, yaxın vaxtlarda özünün iqtisadi problemləri kulminasiya nöqtəsinə çata bilər.

Kreml bütün ümidini Avropaya satacağı qaza bağlayır. Məlum olduğu kimi, Rusiyanın qaz ixracının önəmli hissəsi, ildə 140 mlrd kub metr qaz Avropa Birliyinə ixrac edilir. Bu isə ildə 50 mlrd dollar gəlir anlamına gəlir. Rusiya büdcəsinin böyük bir hissəsi, təqribən 25 faizdən çoxu həmin qaz gəlirlərindən asılıdır. Növbəti ildən isə bu gəlirlər xeyli dərəcədə azala bilər.

Əminliklə vurğulamaq olar ki, Rusiya öz təhdidlərini bundan sonra da davam etdirəcək. Bu təhdidlər yalnız Avropanı deyil, eyni zamanda MDB məkanını əhatə edəcək. Moskva rəsmi Bakını Qərbyönümlü siyasi kursdan üz çevirməyə vadar etməyə səy göstərəcək.

Dünyanı "qaz şantajı" ilə boğan Rusiya heç cürə NABUCCO layihəsinin reallaşmasını istəmir. Bu layihədə əsas oyunçulardan biri olan Azərbaycanın öz qazını Rusiyaya verməkdən imtina etməsinin praqmatik maraqlardan qaynaqlanma ehtimalının olması Rusiyanı qıcıqlandırır.

Moskvanın şantajlarının artdığı bir vaxtda Azərbaycanın xarici siyasətində Rusiya doğru uzanan əllər Qərbin qıcığına səbəb olmaya bilməz. Qarşıdan gələn qışda Bakı kimin tərəfində olacaq? Bu sualın cavabı bir çox mətləblərə aydınlıq gətirə bilər...

**Deputat Fazil Mustafa topaz futbol qumarını ləğv etməyə çağırıb. O, Türkiyədə qumar oyunlarının rəsmən qadağan olunmasını arqument gətirib. Deputat qumarın yığışdırılmasını təklif edib:**

"Xarici siyasətdə bir çox addımlarını uğursuz hesab etdiyim Türkiyənin baş naziri Əhməd Davudoğlunun daxili siyasətdə bu addımını müsbət qiymətləndirirəm. Türkiyədə dövlət adına oynanan qumarın-lotereyanın ləğv olunması bütün hallarda insanların faydasınadır. Bunu heç İslamla da əlaqələndirmək lazım deyil".

TOPAZ® oyna, qazan!

# Nazirin futbol qumarının ləğvi məsələsi böyüdü

## Fazil Mustafanın topaz-ın bağlanması çağırışına dəstək gəldi, Fərəc Quliyev də onunla həmfikirdir

**Onun sözlərinə görə, istər dindar, istər qeyri-dindar olsun, çevrəmizdəki insanlardan heç kəs qumardan mütləq mənada xeyir görməyib:** "Dağılan ailələrin, müflis olan insanların həyat dramına təkcə romanlarda rast gəlinməz. Nə zamansa Azərbaycanda da bu addım atılmalıdır.

İnsanların ümidinin şansa buraxılmasını, yüzlərlə adamın qumarxanalarda həyatını mənasızlaşdırmasını böyük facia olaraq görürəm. Ola bilsin ki, buna da etirazlar olacaq ki, onda bu pullar başqa ölkələrin büdcəsinə axacaq.

Futbolda və başqa idman sahələrində olan milyardlarla qumar pullarından da ölkələrin imtina etməsi asan görünmür. Ancaq narkotikdə də böyük pullar var, mübarizə aparılmasın ki, bu pullar əks halda başqasının cibinə axacaq? Qumarın hər hansı növünün yığışdırılmasının tərəfdarıyam. İnsan həyatında ən ağır xəstəliklərdən də biri şübhəsiz ki, qumardır".

**Deputat Fərəc Quliyev də həmkarının təklifini dəstəkləyir. F.Quliyev "Yeni Müsavat"a açıqlamasında qumarın dövlət səviyyəsində təqdimatının heç bir xeyrinin olmadığını vurğuladı. Onun sözlərinə görə, bir-iki adamın qumardan xeyir götürməsi, başqalarının ailəsinin dağılması ilə nəticələnir:** "Mən də Fazil bəy kimi düşünürəm ki, qanunvericiliklə bu qumar ləğv olunmalıdır. Çünki ailələr dağılır, insanlar borca düşür. Heç bir zaman qumar insana xeyir gətirə bilməz. Bir gündə qazandıqlarını, sabah bütün əmlakını itirmək bahasına əldən verərsən. Ona görə də bu məsələ qaldırıla bilər".

**Nardaran Ağsaqqallar Şurasının sədri məşədi Natiq Kərimli də topaz-ın ləğvinin tərəfdarıdır. Onun sözlərinə görə, nə İslam buna icazə verir, nə də vətəndaşa bir mənfəəti var:** "İstər dövlət, istər qeyri-dövlət səviyyəsində bu qumar tənzimlənsin, əgər vətəndaşa ziyandırsa, ləğvi mütləq lazımdır. Bir oyun ki, qızışdırıcıdır, dava yaradır, onun insana nə kimi xeyri olar? Bu məsələdə Fazil Mustafanın yanındayam".

**N.Kərimli qeyd etdi ki, ruhanilər qumarın haram olmasına daha dolğun cavab verə bilər:** "Quranda bu mövzuda ayələr var. Pulla oynanılan bir oyun haramdır. Alış-veriş haladır, qumara isə icazə verilmir".

**Əslində topaz-ın qapadılması təklifi ötən ildən gündəmə gəlib. Keçən ilin martında Milli Məclisdə bukmekyer kontorların ləğvi məsələsi qaldırılmışdı. YAP-çı deputat Məlahət İbrahimqızının fikrincə, burada gənclər pis işlərə qurşanır və evlərini uduzurlar:** "Gündən-günə xərçəng xəstəliyi kimi yayılan bu topaz deyilən yerləri bağlamaq lazımdır. Xahiş edirəm ki, bu məsələ araşdırılsın".

**Spiker Oqtay Əsədov isə topaz-ın qumarxana adlandırılmasına qarşı çıxmışdı:** "Qumarxana deyil. Bu, idmanın inkişafına görə lazım olan məsələdir. Siz özünüz də bununla bağlı qanuna səs vermisiniz. Ancaq yenə də şikayət varsa, araşdırıb baxarıq".

Bu isə o deməkdir ki, futbol qumarının inkişafına dəstək verənlər, bu biznesdən milyonlar qazananlar iqtidardakı məmur-oliqarxlardır. Onlar isə cidd-cəhdlə bu biznesin ləğvi çağırışlarına qarşı çıxır, müqavimət göstərirlər. Çünki fantastik məbləğdə gündəlik pullar əldə olunur. Təbii ki, bukmeyker kontorlarının bir çox ölkələrdə olduğu söylənə bilər. Ancaq bu qumardan oyunçudan çox, onu təşkil edənlər qazanır.

Qeyd edək ki, Azərbaycanda futbol qumarına rəsmi status verildiyindən sonra bu sahə çox "rentabelli biznes" növünə çevrilib. Gənclər və idman naziri Azad Rəhimovun rəsmi himayəsi ilə gün-gündən çiçəklənən futbol qumarının idarə edilməsi iş adamı, "Bakı" futbol klubunun sahibi Hafiz Məmmədova *(daha çox "Hafka" ləqəbi ilə tanınır)* tapşırılmışdı.

Futbol qumarının gəlirliliyini görən nəqliyyat naziri Ziya Məmmədov və vergilər naziri Fazil Məmmədov da bu işə qatılıblar. Həmçinin nəqliyyat nazirinin oğlu Anar Məmmədov da bu qumara əl qoyub. Ancaq mərc oyunlarının təşkilini həyata keçirən topaz-la "Hafka"nın yolları ayrılıb.

❑ **E.SALAMOĞLU**


**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



**Elan**

**Hacıqabulda İpək Yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2 ədəd 2 otaqlı , 1 ədəd 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq üçün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2 ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**



ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan

"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ

*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

**Öz gələcəyini görmək, həyatda baş verən hadisələrin sirli məqamlarına vaqif olmaq hər kəsin arzusudur. Bu arzu insanları bəzən falçılara, ekstrasenslərə üz tutmağa vadar edir və əksəriyyəti bu yolla dələduzluq edənlərin qurbanına çevrilir.**

# "Falçı və ekstrasens ovu" başlaya bilər

## "Bu fırıldaqçıların telekanallarda təbliği dayandırılmalıdır"

Yayılan məlumatlara görə, falçılardan kömək uman insanlar arasında məşhur simalar, dövlət xadimləri də az deyil.

Maraqlısı odur ki, bu cür hallara qarşı nə ictimaiyyət, nə dövlət, nə də vətəndaş cəmiyyəti reaksiya vermir. Vəziyyət o həddə çatıb ki, internet üzərindən onlayn xidmət göstərən falçılar da var. İnsanları aldadıb, pulunu mənimsəmək üçün texnologiyanın son imkanlarından yararlananlar, skype, facebook və digər sosial şəbəkələrdə fala baxanlar da var.

Hökumətin toy və yas mərasimləri ilə bağlı başlatdığı son islahatları nəzərə alsaq, bu silsilənin davamı olaraq, falçı və ekstrasenslərə qarşı mübarizənin başlayacağını da düşünmək olar. Teleaparıcı İlham Mirzəyevin həbsinin motivləri də göstərir ki, hökumət ekstrasenslərə qarşı mübarizənin ilk addımlarını atmaqdadır.

Ehtimal var ki, bu hal kütləviləşə və daha geniş falçı kütləsini əhatə edə bilər.

Ancaq hələlik nə Milli Məclisdə, nə də mətbuatda bu haqda söhbətlər getmir.

Musavat.com olaraq, "falçı və ekstrasenslərin fəaliyyəti"nin nə zaman nəzarətə götürüləcəyini araşdırmağa çalışdıq.

**Yazıçı-publisist Həmid Herisçinin sözlərinə görə, teleaparıcı İlham Mirzəyevin simasında ölkə rəhbərliyi ekstrasens və falçılığa son qoymaq qərarına gəlib:** "İlham Mirzəyevin məhkəmə prosesinin nəticəsi həm də hökumətin falçılar, ekstrasenslərlə bağlı verəcəyi qərarı müəyyənləşdirəcək. Əslində bütün toy və yas islahatlarının kökü falçıların fəaliyyətinə son qoymaqdan başlayır. Məndə olan məlumatlara görə, təkcə İlham Mirzəyev yox, başqa ekstrasenslər də təqib olunur. Proses gedir. İlham Mirzəyev vaxtilə mənim həmkarım olub, onun haqqında pis danışmaq istəməzdim. Ancaq görünür, artıq cəmiyyətə bunlar lazım deyil və yığışdırılmalıdır".

**"Gerçək ekstrasenslər də var, ancaq..."**

**Həmid Herisçinin fikrincə, həqiqi ekstrasenslər də var:** "Ancaq həqiqi öngörücülər üzə çıxmazlar, alver eləməzlər, onlara verilmiş ilahi vergini itirməkdən qorxurlar. Ortada olanlar isə daha çox



**"İlham Mirzəyevin yanına gedəcək çoxlu insanlar var və onların əksəriyyəti də ekranlardadır"**

dələduzlardır. Əsl ekstrasenslər gizli qalmağı sevərlər. Çalışarlar ki, onlar haqqında heç kim, heç nə bilməsin. Hökumət də əsl ekstrasensləri efirə buraxmır, onların sənədləri alınır, onlar üçün xüsusi bioqrafiya düşünülür, cəmiyyətdən gizlədilir və yalnız qapalı bir şəraitdə hökumətin, dövlət başçılarının, bəzi qurumların xüsusi tapşırıqlarını yerinə yetirirlər. Efirlərdə olan falçılar isə yalnız göz aldatmağa xidmət edir".

**"İlham Mirzəyevin yanına çox adam gedəcək"**

**Hökumətin falçılara qarşı mübarizə aparmalı olduğunu bildirən deputat Zahid Orucun sözlərinə görə, daha çox televiziyaların efirindəki biabırçılıqlar yığışdırılmalıdır:** "Mədəni inqilab ehtiyacı cəmiyyətin özündən gəlməlidir və hökumətin də borcudur ki, o çağırışlara cavab versin. Tarix boyu insanlar gələcəyi görmək ümidi ilə falçıların qurbanına çevriliblər. Təkcə Azərbaycanda deyil, xristian, yəhudi cəmiyyətlərində də ekstrasenslər var. Hökumət bu məsələdə ən azı şəxslər səviyyəsində mübarizə aparmalıdır. Falçılara qarşı mübarizə çox çətin tənzimlənən bir məsələdir. Ancaq ən azı bunun televiziyalar vasitəsilə təbliğ edilməsini qadağan edə bilərlər. Cəhalət üzərində öz biznesini quran adamlar hər cür cəzaya layiqdirlər. Bölgələrdə "falçıların bazarı" daha çox inkişaf edib. Onlara inanacaq qədər sadəlövh insanlar çoxdur. Mənim bu məsələdə mövqeyim kəskindir".

İlham Mirzəyevin həbsinə münasibət bildirən deputat dedi ki, əgər o insanlar öz gələcəklərini görməkdə acizdirlərsə, başqalarının problemini necə həll edə bilərlər: "Daha çox həyatda uğursuz olan insanlar, fiziki, psixoloji çatışmazlığı olanlar, ruhi xəstələr özlərini ekstrasens kimi qələmə verib, insanların avamlığından istifadə edirlər. İlham Mirzəyevin yanına gedəcək çoxlu insanlar var və onların əksəriyyəti də ekranlardadır. Hüquq-mühafizə orqanları onlara qarşı əməliyyat keçirməlidir".

**"İslamda falçılıq şeytan əməlidir"**

**İlahiyyatçı Elşən Mustafaoğlunun sözlərinə görə, İslam dini falçılığa qarşı qəti mövqe nümayiş etdirir və onu şeytan əməli kimi səciyyələndirir:** "Məlumdur ki, falçılıq qədim dövrlərdən mövcud olub və elə Həzrəti Məhəmməd Peyğəmbərin (s) dövründə də fal oxları atıb, fala baxır, fal əsasında insanların taleyi ilə bağlı cəfəng iddialar irəli sürürmüşlər. Həzrəti Peyğəmbər (s) bu kimi hallara qarşı mübarizə aparır və insanları falçılardan uzaq olmağa çağırır. Maidə surəsinin 90-cı ayəsində bu haqda buyurulur: "Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız!"

Beləliklə, İslam dini nə elmi, nə də dini əsası olan falçılığı qətiyyətlə rədd edir. Bu, insanların taleyi ilə oynamaq, insanları psixoloji cəhətdən özündən asılı etmək, bu asılılıq bahasına şəxsi mənfəət eldə etmək məqsədi daşıyan dələduzluqdur.

İnsanlar həyata rasional yanaşmalı, elmi və dini əsası olmayan falçılıq kimi çirkin işdən uzaq olmalıdırlar. İnsanlar əminliklə bilməlidirlər ki, Allah hər kəsə iradə azadlığı, seçim imkanları verib və taleyimizin necə olması bizim bu gün hansı addımı atacağımızdan asılıdır, falçıların verdiyi proqnozlardan yox... Həyata doğru-düzgün baxışla yanaşıb, həm rasional, həm də mənəvi cəhətdən düzgün addımlar atsaq, gələcəyimiz mütləq xoşbəxt olar.

Heç bir falçı insanın gələcəyini təyin edə, ona bu işdə yardımçı ola bilməz. İnsanın gələcəyi onun özündən, ətrafdakı obyektiv amillərdən və ümumilikdə, Allahdan asılıdır. İnsanın həyatında falçıya yer yoxdur! Falçıların öz həyatlarına bir baxın - onlar nəyəsə qadir olsaydılar, öz həyatları üçün bir gün ağlayardılar. Ümumiyyətlə, qeyd edim ki, falçılıq bir xurafatdır, mövhumatdır. Həqiqi İslam isə hər cür xurafat və mövhumatı rədd edir və ona qarşı mübarizə aparır".

Bütün bu deyilənlər göstərir ki, hökumətin islahatlar dalğası falçı və ekstrasenslərə də gəlib çatacaq. Yəqin ki, özünü öngörücü kimi təqdim edənlər öz gələcəklərini də öncədən görüb, dələduzluq əməllərinə son qoyarlar. Əks halda, "plovun altında toyuğu görməyən" falçıları da onların hazırda həbsdə olan həmkarları İlham Mirzəyevin taleyi gözləyə bilər.

❑ **Nərgiz LİFTİYEVA**

# Göyçayda maşın karvanı qəzaya uğradı, 9 nəfər öldü




**Bakı-Şamaxı-Yevlax avtomobil yolunda ağır avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə dünən saat 13:30 radələrində yolun 193-cü kilometrliyində, Göyçayın Şahsoltanlı kəndi ərazisində qeydə alınıb. Məlumata görə, hadisə həmin kənddə keçirilən toy mərasiminə gedən qonaqları aparan minik maşınlarının karvanında baş verib.**

Gəlin aparan maşınların toy karvanında olan 90-BP-886 dövlət nömrə nişanlı, "Mercedes" markalı minik maşını qarşı tərəfdən gələn 23-BX-232 dövlət nömrə nişanlı, "Mitsubishi Pajero" markalı minik maşını ilə toqquşub. Hadisə yerində 4 nəfər dünyasını dəyişib. Hadisə yerinə gələn Fövqəladə Hallar Nazirliyinin İsmayıllı Dövlət Yanğından Mühafizə Hissəsinin yanğınsöndürən-xilasetmə qrupunun üzvləri xüsusi kəsici alətlərdən istifadə edərək deformasiyaya uğramış maşınlardan hələ ki şəxsiyyəti məlum olmayan 3 qadın və bir kişinin meyitini çıxarıblar.

Hadisə zamanı ağır yaralanan 6 şəxs Ağsu və Göyçay xəstəxanalarına aparılıb. Sonradan yaralılardan 5 nəfəri də dünyasını dəyişib. Hazırda ölən şəxslərdən 6-nın meyiti Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Ağsu rayon şöbəsində, 3-nün meyiti isə Göyçay rayon şöbəsindədir.

Bir nəfər yaralı ağır vəziyyətdə Göyçay Mərkəzi rayon Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilib.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

# İcra başçısının oğlu qəzaya düşdü, McDonalds-ın rəhbərinin oğlu öldü




**Bakıda yüksək rütbəli məmur və tanınmış iş adamının övladlarının olduğu avtomobil qəzaya uğrayıb. Milli.az xəbər verir ki, məlumata görə, qəzada McDonalds - Azərbaycan şirkətinin icraçı direktoru Maqsud Mirzəyevin 16 yaşlı oğlu Sənan dünyasını dəyişib.**

Hadisə sentyabrın 27-də saat 18 radələrində baş verib. 26 yaşlı İlham Əsgərlinin idarə etdiyi 90 AR 819 dövlət nömrə nişanlı "Mercedes" markalı avtomobil 23 yaşlı Əhliman Qəhrəmanovun idarə etdiyi "Howo" markalı yük maşını ilə toqquşub. Qəza nəticəsində S. Mirzəyev ölüb, İ. Əsgərli, Pərvin Fətullayev və yük maşınının sürücüsü Əhliman Qəhrəmanov yaralanıb.

Hadisə baş verən vaxt M.Mirzəyev ABŞ-da olub və oğlunun ölüm xəbərini eşidərək dərhal ölkəyə dönüb. McDonalds şirkəti də rəhbərlərinin övladını itirməsini təsdiqləyib.

"Qafqazinfo" xəbər verir ki, toqquşan maşınlardan digərinin sürücüsü Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovun oğlu İlham Əsgərli olub.

Hadisə nəticəsində hər iki sürücü yaralanıb, İ. Əsgərlinin vəziyyətinin ağır olduğu bildirilir.

# Abşeronda əməliyyat; silahlı şəxslər tutuldu



**Abşeronda xeyli silah-sursat aşkarlanıb. Lent.az-ın Daxili İşlər Nazirliyinin saytına istinadən məlumatına görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və Abşeron RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Hökməli qəsəbəsində silahlı şəxslər tutulub.**

Saxlanılan şəxslərdən Cavidan Cəbrayılovdan 1 ədəd "Makarov" markalı tapança və 4 ədəd patron, Ədalət Xəlilovdan isə alışqanı ilə birgə 2 qutu trotil, 1 ədəd "F-1" qumbarası, 34 ədəd müxtəlif çaplı patron aşkar olunub. Eləcə də Ceyhun Xəlilovdan 10 qram marixuana və Mübariz Cəbrayılova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilən ümumi çəkisi 1 kiloqram olan 7 çətənə kolu aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

# YENİ MÜSAVAT

Son səhifə

*N 243 (5952) 30 sentyabr 2014*




## Yanğınsöndürən hamsterləri xilas etdi

Vaşinqtondakı Leysi şəhərində yanğınsöndürənlər 5 hamsteri xilas ediblər. Heyvanları xilas etmək üçün oksigen maskalarından istifadə olunub. Nəticədə hamsterlərdən dördü sağ qalıb. Yanğın zamanı evdə hamsterlərdən başqa heç bir canlı olmayıb. Yerli qəzetlər xəbər verir ki, yanğın barədə qonşular xilasetmə xidmətini məlumatlandırıb. Məlum olub ki, yanğının başvermə səbəb evdəki paltarqurudan maşının açıq qalması olub. Hələ sentyabrda Texas polisi yanan evdən qurbağa xilas ediblər. Akvariumda olan balıqlara isə heç bir ziyan dəyməmişdi.



## Amerikada iş çox, işləmək istəyən yox...

Son bir ildə Amerikada işləmək istəyən insanların sayında azalma müşahidə olunub. Bu, son 34 ilin ən aşağı göstəricisi kimi qeydə alınıb. Elə həmin səbəbdən də 4 milyon işçiyə ehtiyac duyan Amerikada bəzi iş yerləri boş qalıb. İqtisadi böhrandan çıxışın ən önəmli sübutu kimi açılan yeni iş yerlərində isə amerikanlar işləmək istəmir. Araşdırmalar ölkədə xalqın get-gedə tənbəlləşdiyini ortaya qoyub. "Express Employment Professionals" təşkilatının araşdırma nəticələrinə görə, amerikanlar artıq iş axtarmağı bir kənara qoyub. Hər gün daha çox insan sosial güzəştlər üçün müvafiq qurumlara müraciət edir.

# Bu rahib çiynində 22 qadın gəzdirir

Lüteran kilsəsinin keşişi Kevin Fastı dünyadakı ən güclü din adamı adlandırıblar. O, "Ginnesin Rekordlar Kitabı"ndakı bir çox rekordların sahibidir. Kişi Ontario ştatındakı Müqəddəs Pavel kilsəsində qulluq edir. 51 yaşlı Pavel güc idman növləri ilə məşğul olur. 12 yaşından idmanın bu növü ilə məşğul olan K.Fast rekordlarla, müxtəlif şoularla bağlı qazandığı pulları yerli xeyriyyə təşkilatlarına yönləndirir. Fastın "Ginnesin Rekordlar Kitabı"na düşməsi birinci dəfə deyil. Daha öncə o, ən ağır təyyarəni (189 ton) yerindən tərpətməyə müvəffəq olub. Bundan başqa, rahib 57 ton ağırlığında olan yük maşınını da 30 metr məsafədə yerindən tərpədib. K.Fastın ən maraqlı rekordu isə 22 qadını çiyninə qaldırıb daşımasıdır.



# Kasıblıq insanın ağlını əlindən alır?

Kasıblıq insanın bir çox xüsusiyyətlərini əlindən alır. Belə ki, gündəlik olaraq kasıblıqla mübarizə aparan insanın dost çevrəsi və əqli qabiliyyəti azalır. Yaşam qayğılarını həll etməli olan şəxs təhsil, yeni iş yerlərinin tapılması ilə bağlı düşünməsinin qarşısını alır. Bununla da onun düzgün olmayan qərarlar verməsinə, öz situasiyasını daha da pisləşdirməsinə səbəb olur. Amerikalı alimlərin gəldiyi bu nəticə "Science" jurnalında 30 avqust tarixində dərc edilib. Alimlərin yazdığına görə, yaşam dərdi insanların mütaliə və düşünmə qabiliyyətini də əlindən alır. Belə ki, xərcləri artan, borc bataqlığında üzən, kreditlərini necə verməli olduğunu düşünən şəxsin intellektual səviyyəsi də 13 faiz aşağı düşür. Müəlliflər hesab edir ki, kasıbların durumunu yaxşılaşdırmaq üçün səfərbər olan xeyriyyə qurumları onların əqli qabiliyyətinin aşağı düşməsinə də bir çarə tapmalıdır. Bunun üçün bəzi kursların təşkili çıxış yolu kimi göstərilib.





## Ailələrdə dava-dalaş daha çox bayram tətillərində olur

Türkiyəli psixoloqlar uzun müddət davam edən bayram günlərinin evli cütlüklər üçün o qədər də faydalı olmadığı qənaətinə gəlib. Belə ki, ər-arvad daha çox bayram tətillərində dava-dalaş edir. Psixoloq Zəfər Topbaş deyib ki, iş günlərində ər-arvad bir-birinin üzünü daha az görür. Gördükləri vaxt isə daha çox gündəlik qayğılardan, uşaq (əgər varsa) onun problem və sevinclərindən danışmağa üstünlük verir. Bir-birinə az vaxt ayıran cütlük avtomatik olaraq davaya da az vaxt ayırır. Amma bayram günlərində ər-arvadın istirahət, televizora baxmaq, yaxınları ziyarət etmək kimi məsələlərdə fikir ayrılıqları yaranır. Bu da özünü insident, dava şəklində göstərir: "Əslində deyirlər ki, ər-arvad bir-birinə çox vaxt ayıranda daha çox xoşbəxt olur. Amma meqapolislərdə bunun əksi baş verir. Cütlüklər az görüşəndə daha az dalaşır".




**QOÇ** - Bu gün hansısa fəaliyyətinizin səmərə verəcəyi inandırıcı görünmür. Lakin buna görə ruhdan düşməyinizə əsas yoxdur. Əksinə, sövdələşmələrə başlamaq və gəlir əldə etmək üçün uğurludur.

**BUĞA** - İxtiyarınızda olan bu təqvimdə müəyyən gərginliklərlə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**ƏKİZLƏR** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planların bir çoxunu reallaşdıracaqsınız. Bunun üçün ilk növbədə ədalət prinsiplərinə söykənməlisiniz. Nahardan sonra səfərə çıxmağa dəyər.

**XƏRÇƏNG** - Astroloji göstəricilər səhhətinizdə problemlərin olacağını göstərir. Hər addımda ehtiyatlı olun. Ələlxüsus da qida və yuxu rejiminə ciddi riayət edin. Borc almağa girişməyin.

**ŞİR** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**QIZ** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz ümumi yorğunluğunuz və daxili süstlüyünüz səngiməyəcək. Qonaq getmək olar.

**TƏRƏZİ** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**ƏQRƏB** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**OXATAN** - Planetlərin bürcünüzdəki neqativ quruluşu sağlıq durumunuzda mənfi fəsadlar əmələ gətirə bilər. Buna baxmayaraq, fəaliyyətdə uğurlarınız gözlənilir. Oturaq işləri məhdudlaşdırın.

**OĞLAQ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**SUTÖKƏN** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**BALIQLAR** - Bəzi bürclərdə olduğu kimi sizin də səhhətlə bağlı problemləriniz mümkündür. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra sürpriz gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qadınlar kişilərdən daha çox yatır



Aparılan araşdırmalar göstərib ki, daha çox əqli çalışma səbəbindən qadınlara kişilərdən daha çox yatmaq lazım olur. Lenta.ru saytı xəbər verir ki, belə bir nəticəyə Amerikanın Dyuka Universitetinin alimləri gəliblər. "Orta hesabla qadınların kişilərdən təqribən 20 dəqiqədən 90 dəqiqəyə qədər daha çox yuxuya ehtiyacı olur" deyə, Amerikanın yuxu sahəsi üzrə tanınmış professoru Maykl Breus bildirib.

Araşdırmaçılar müəyyən ediblər ki, qadınlar gün ərzində kişilərə nisbətən daha çox əqli tapşırıqlar etməli olduqlarına görə daha çox yatmağa ehtiyacları olur.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

Lisenziya N: B 114
SAYI: 5.600